QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 176 (5896) **26 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Vətəndaşların rahatlığı hər şeydən üstündür"

*Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub*




Səh 2

5

**YAP Sumqayıtda müşavirə keçirib**



5

**Siyavuş Novruzov: "Azərbaycan sabitlik adasıdır"**



10

**Narazılıq aksiyası Ermənistanda pik həddə çatdı**



# İlham Əliyev: “Vətəndaşların rahatlığı hər şeydən üstündür”

## *Bakı Nəqliyyat Agentliyinin “Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub*

***Sentyabrın 25-də Bakı Nəqliyyat Agentliyinin “Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.***




Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sürətli sosial-iqtisadi inkişafın təmin olunması istiqamətində nəhəng layihələr icra edilir. Bütün bunlar vətəndaşların sosial rifahının yaxşılaşdırılmasına, insanların rahatlığının, təhlükəsizliyinin təmin olunmasına yönəlib. Hazırda ölkədə keyfiyyətli ictimai nəqliyyat xidmətlərinin göstərilməsi ilə bağlı görülən işlər də məhz bu amildən qaynaqlanır.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, son illərdə nəqliyyat parkının müasirləşdirilməsi, sərnişinlərin müntəzəm marşrut avtobuslarından təhlükəsiz və rahat istifadəsini təşkil etmək məqsədilə bir sıra layihələr icra olunub. Bu layihələrdən biri də ictimai nəqliyyat sistemində yenilik olan Nəqliyyat Mübadilə mərkəzlərinin - HUB-ların yaradılmasıdır. Bu konsepsiyada əsas məqsəd sərnişinlərin rahat gediş-gəlişinin təmin edilməsi, şəhərdə nəqliyyatın mobilliyinə nail olunması, Bakının mərkəzi hissəsində nəqliyyat sıxlığının aradan qaldırılmasıdır. Bu layihənin icrası vətəndaşların rahatlığı ilə yanaşı, sərnişindaşımada təhlükəsizlik baxımından da mühüm rola malikdir.




Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli “Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzində yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edildi ki, Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişmə nöqtəsi, Böyükşor qovşağı, eləcə də metronun “Koroğlu” stansiyasının yaxınlığındakı bu Nəqliyyat Mübadilə Mərkəzi ilk HUB olaraq 2016-cı ildə təşkil edilib. Pilot layihə olaraq mərkəz əvvəlcə yüngül konstruksiyalardan hazırlanmışdı. Lakin sonradan əhalidən gələn müraciətlərlə əlaqədar “Koroğlu” HUB 2019-cu ildə əsaslı şəkildə yenidən qurulub və burada müasir nəqliyyat infrastrukturu yaradılıb.

Dövlətimizin başçısının tapşırığına əsasən, Agentlik tərəfindən Bakı şəhərinin əsas giriş-çıxış ərazilərində 5 böyük HUB təşkil edilib, şəhər və qəsəbələrdə isə 6 kiçik HUB-ın yaradılması planlaşdırılır. Bütün mərkəzlərdə buradakı kimi ən yüksək şərait yaradılacaq.

Prezident İlham Əliyev: Əlbəttə, biz bu sahəyə böyük diqqət göstəririk. Çünki vətəndaşların rahatlığı hər şeydən üstündür. Ona görə ən müasir avtobuslar alınır, nəqliyyatla və təhlükəsizliklə bağlı çox ciddi tədbirlər görülür. Bu işləri davam etdirin. Şəhərimizin hər bir yerində ən yüksək səviyyəli nəqliyyat şəraiti yaradılmalıdır.

x x x

Məlumat verildi ki, paytaxtın yollarında yeni səkilər salınıb, görmə əngəlli vətəndaşlar üçün şərait yaradılıb. Hökumət evinin arxasında pilot layihə kimi velosiped yolunun salınması nəzərdə tutulur. Yolun 100 metrlik hissəsi artıq hazırdır. İndi velosiped yolunun örtüyü ilə bağlı təcrübələr aparılır. Bu yolun salınmasında əsasən yerli materiallardan istifadə edilir. Bakı şəhərində ümumilikdə 18,5 kilometrlik, ilk mərhələdə isə 7,5 kilometrlik velosiped yolunun salınması nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, şəhərdə parklanma ilə əlaqədar ilkin mərhələdə 600-dək yer müəyyənləşdirilib. İndi bu istiqamətdə infrastruktur işləri görülür.

Sonra dövlətimizin başçısı və birinci xanım platformalarda və gözləmə zallarında yaradılan şəraitlə maraqlandılar.

Bildirildi ki, burada dörd platformadan ibarət avtobus terminalı inşa edilib. Platformalarda müasir informasiya texnologiyaları avadanlığı, havalandırma sistemi ilə təchiz edilmiş 10 gözləmə zalı var. Gözləmə zalları Azərbaycanın elm, ədəbiyyat, mədəniyyət, incəsənət, tarix, idman sahələrində əldə etdiyi uğurları, zəngin dəyərləri əks etdirən yazılı və qrafik məlumatlar əsasında tərtib edilib. Hər bir zalda maarifləndirici məlumatlarla yanaşı, kitab rəfləri də quraşdırılıb. Gözləmə zalları ilə yanaşı, mərkəzdə 5 köşk, 1 idarəetmə otağı, tibb məntəqəsi, ana və uşaq otağı inşa edilib. Zallar içməli su ilə də təmin olunub.

Ətraf kənd və qəsəbələri şəhər mərkəzi ilə birləşdirən 30 müntəzəm marşrut xətti üzrə 430-a yaxın avtobusun fəaliyyət göstərdiyi mərkəzin xidmətlərindən gün ərzində 270 min nəfərə yaxın sərnişin istifadə edəcək. Ümumilikdə isə gün ərzində Bakı şəhərində 2,2 milyon sərnişin daşınır. Burada hər bir marşrut xətti üzrə avtobuslar üçün dayanacaq yeri müəyyən edilib, məlumatlandırıcı lövhələr yerləşdirilib.

**Ardı Səh. 3**

# İlham Əliyev: "Vətəndaşların rahatlığı hər şeydən üstündür"

*Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub*

Əvvəli-Səh-2




Paytaxtın avtobus parkının yenilənməsi məqsədilə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən 300 yeni avtobus sifariş olunub. Avtobuslardan 168-i artıq BNA-ya təhvil verilib. Oktyabrın sonunda avtobusların sayı 200-ə çatdırılacaq. Ümumilikdə bütün avtobusların ilin yekununda təhvil verilməsi planlaşdırılır. Prezident İlham Əliyev burada yaradılmış şəraiti yüksək qiymətləndirdi.

Mərkəzin əsas özəlliklərindən biri də ərazidəki istirahət parkıdır. Parkda qurulan ən müasir işıqlandırma sistemi gecələr buraya xüsusi gözəllik bəxş edir.

Prezident İlham Əliyev: Biz bu parkı mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl yaratmışıq. İndi bura gözəl bir istirahət zonasıdır. Bu da parka bitişik olan bir yerdir. Burada gözəl şərait var. Biz böyük bir ərazini ictimai yerə çevirdik. Çünki bəzi fikirlər var idi ki, burada tikinti aparılsın, binalar tikilsin. Mən icazə vermədim, dedim ki, bura vətəndaşların rahatlığı üçün ictimai zona olmalıdır. İndi bura böyük ərazidir. Şəhərin mərkəzində yeni gözəl istirahət və nəqliyyat mərkəzi yaradılıb.



x x x

Sonra dövlətimizin başçısı və birinci xanım Türkiyənin BMC şirkətinin istehsalı olan avtobusa baxdılar.

Məlumat verildi ki, sərnişindaşıma tələblərinə tam cavab verən bu avtobuslar rahatlığı ilə fərqlənir. Avtobusların ən üstün cəhəti onun sıxılmış təbii qaz mühərrikli olmasıdır. "BakuBus" MMC üçün əvvəllər sifariş edilən avtobuslar 300 kilometr məsafə qət edə bilirdisə, sıxılmış təbii qaz mühərrikli avtobuslarda bu məsafəni 600 kilometrədək artırmaq mümkün olub. Bu avtobusların salonu və mühərrik sistemi tamamilə dəyişdirilir. İyirmi altı oturacaq yeri olan avtobusların ümumi sərnişin tutumu yüz nəfərlikdir. Prezident İlham Əliyev əlavə müasir avtobusların alınması ilə bağlı tapşırıqlarını verdi.

x x x

və şəhərlərarası avtobuslar, metro və dəmir yolu nəqliyyatı kimi ictimai nəqliyyat növlərini birləşdirən və onların arasında daşımaları asanlaşdıran nəqliyyat infrastrukturudur. HUB konsepsiyası əsasən şəhərətrafı ərazilərdən şəhər mərkəzinə gələn avtobusların hərəkətinin mərkəzləşdirilmiş şəkildə təşkili, həmçinin sərnişindaşımada səmərəli idarəetmənin və nəzarət mexanizminin gücləndirilməsində mühüm rol oynayır.

Son illərdə dövlətimizin başçısının sərəncamlarına, tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakının qəsəbə və kəndlərində müasir yollar salınır, orada yaşayanların sosial məsələlərinin həlli üçün konkret addımlar atılır. Bu mərkəzin yaradılması da bu istiqamətdə atılan addımların ardıcıl xarakter aldığını göstərir. Belə ki, bu infrastruktur Bakının qəsəbələrində yaşayanların şəhər mərkəzinə,






Qeyd edək ki, "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi istər yol hərəkətinin təşkili, istərsə də sərnişindaşıma sahəsinə müsbət töhfə verəcək. Bu mərkəz şəhərdaxili həmçinin əks istiqamətə rahat və təhlükəsiz hərəkətini təmin etməklə, ümumilikdə, paytaxtda sərnişindaşıma xidmətinin müasirləşdirilməsinə töhfə verəcək.

# Uğurlu sosial inkişaf strategiyası

## *Prezident İlham Əliyev: "Əsl siyasət konkret və real iş görməkdən ibarətdir"*



***Bu gün Azərbaycanda uğurlu və mütərəqqi sosial-iqtisadi siyasət həyata keçirilir. İnsana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. Ölkəmizin iqtisadi inkişafı nəticəsində, sosial ayırmaların həcminin artırılması, əhalinin ümumi rifah halının yüksəldilməsi dövlət sosial siyasətinin prioritet sahəsi kimi diqqət mərkəzindədir. Bu da, onu göstərir ki, Azərbaycanda xalqın həyat səviyyəsinin yaxşılaşdırılması dövlətin öz qarşısına qoyduğu ən önəmli məqsədlərdən birinə çevrilib.***



### Düşünülmüş siyasət və güclü iqtisadiyyat

Azərbaycanın sosial-iqtisadi inkişafının təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda və güclü iqtisadiyyat dayanır. Bu gün tam müstəqil siyasət yürüdən Azərbaycan heç kimdən asılı deyil və iqtisadi müstəqillik ölkəmizə böyük dividendlər qazandırıb. Dövlət başçısının söylədiyi kimi, iqtisadi baxımdan 16 il ərzində, Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur: "Bütün bu işləri öz daxili imkanlarımız hesabına görürük, heç bir yerdən yardım almırıq, iqtisadiyyatımız inkişaf edir. Bu il də yaxşı nəticələr olacaqdır. Gələn il daha yaxşı nəticələr olacaq. Artıq ilkin proqnozlar verilibdir. Gələn il sürətli inkişaf ili olacaq. Beləliklə, maliyyə imkanlarımız daha da genişlənəcək və ölkə qarşısında duran əsas vəzifələrin, infrastruktur layihələrinin, eyni zamanda və ilk növbədə, sosial məsələlərin həlli üçün biz bu vəsaitdən istifadə edib, sizin problemlərinizi həll edəcəyik".

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı və kompleks tədbirlər makroiqtisadi sabitliyin daha da möhkəmlənməsinə, ölkənin dayanıqlı inkişafına və əhalinin həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfələr verir. Digər tərəfdən, bu siyasətin əsas mahiyyəti aztəminatlı əhali qruplarının dayanıqlı təminat sistemini yaratmaq, bununla da, ölkə əhalisinin həyat şəraitinin uzunmüddətli yaxşılaşdırılmasına nail olmaqdır.

### "Əsl siyasət konkret və real iş görməkdən ibarətdir"

"Əsl siyasət konkret və real iş görməkdən ibarətdir"- deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar və imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini və gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək və daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."

Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, son 16 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş və Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

16 illik Prezidentliyi dövründə Cənab İlham Əliyev xalqın etimadını əməli fəaliyyəti, xeyirli, gərəkli işləri ilə doğruldub. Belə ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində, orta aylıq əməkhaqqı 7, minimum əməkhaqqı isə 6,5 dəfə artıb. Təbii ki, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqəsinin, şəhid ailələrinin, əlillərin, qaçqın və məcburi köçkünlərin problemləri daim diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin ötən il keçirilən prezident seçkilərində qələbə qazandıqdan sonra imzaladığı ilk Fərmanın şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi haqqında olması deyilənlərin əyani sübutudur. Onu da vurğulamaq lazımdır ki, bütün şəhid vərəsələrinə birdəfəlik ödənişlərin verilməsi prosesi bu il ərzində başa çatdırılacaq. Bütün bunlar ölkə əhalisinin sosial vəziyyətlərinin yaxşılaşmasına və özlərini güvənli hiss etməsində daha geniş imkanlar yaradır.

Bir sözlə, Azərbaycan dövlətinin sosial inkişaf sahəsində əldə etdiyi uğurlu nəticələr, deməyə əsas verir ki, Azərbaycan uğurlu inkişafdadır. Ən başlıcası isə, qazanılan iqtisadi uğurlar sosial siyasətin genişlənməsinə yeni imkanlar yaradır. Çox qürurverici ənənədir ki, həyata keçirilən sosial siyasət tamamilə Azərbaycan vətəndaşının həyatını müsbət istiqamətdə dəyişdirməyə, insanların özlərini güvənli hiss etməyə sövq edir və qətiyyətlə bildirmək olar ki, Cənab İlham Əliyevin yeritdiyi kurs, nəinki böyük hərflərlə qeyd ediləcək İSLAHAT-dır, hətta islahata inqilabi yanaşma nümunəsidir.

Bütün bunlar, bir daha sübut edir ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır. Çünki Prezident İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Ancaq daha bir fakt budur ki, tale hər bir xalqa bu cür mühüm xarizmalara sahib ola biləcək lider bəxş etmir. Nə xoşdur ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev dühasının tarixi Liderliyini qəbul etməklə, yaşatmaqla bərabər, hazırda Onun layiqli davamçısı İlham Əliyev Liderliyi dövrünü yaşayır! Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan strateji kurs daxili ictimai-siyasi sabitliyi və tərəqqini də ən yüksək səviyyədə təmin edib.

Bəli, bu, həqiqətən də, belədir! Azərbaycan dövlətinin sosial inkişaf sahəsində əldə etdiyi uğurlu nəticələr, deməyə əsas verir ki, Azərbaycan uğurlu inkişafdadır. Ən başlıcası isə, qazanılan iqtisadi uğurlar sosial siyasətin genişlənməsinə yeni imkanlar yaradır. Çox qürurverici ənənədir ki, həyata keçirilən sosial siyasət tamamilə Azərbaycan vətəndaşının həyatını müsbət istiqamətdə dəyişdirməyə və insanların özlərini güvənli hiss etməyə sövq edir. Qətiyyətlə bildirmək olar ki, Prezident İlham Əliyevin yeritdiyi kurs, nəinki böyük hərflərlə qeyd ediləcək İSLAHAT-dır, hətta islahata inqilabi yanaşma nümunəsidir.

***RƏFİQƏ KAMALQIZI***

# YAP Sumqayıtda müşavirə keçirib




***Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər və Qubadlı rayon təşkilatlarının ərazi ilk partiya təşkilatlarının sədrləri və partiya fəalları ilə müşavirə keçirilib. SİA-nın verdiyi məlumata görə, müşavirədə qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıq, eləcə də, ictimai-siyasi proseslərdə ərazi ilk partiya təşkilatlarının, partiya fəallarının üzərinə düşən vəzifələr və s. məsələlər müzakirə olunub.***



Tədbirdə Baş nazirin müavini, YAP Sədrinin müavini Əli Həsənov və YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov iştirak ediblər. Müşavirə iştirakçıları əvvəlcə Sumqayıt şəhərinin mərkəzindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər. Daha sonra Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində şəraitlə tanış olublar.

Sonra müşavirə Heydər Əliyev Mərkəzinin akt zalında öz işinə başlayıb. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Tədbirdə çıxış edən Baş nazirin müavini, YAP-ın Sədr müavini Əli Həsənov deyib ki, Yeni Azərbaycan Partiyası xalq üçün, Azərbaycanın gələcəyi üçün yaradılıb. Ümummilli Lider Heydər Əliyevi də hakimiyyətə xalq gətirdi. O, xalqı və dövlətimizi bütün təhlükələrdən xilas etdi. Əli Həsənov bildirib ki, bu gün Azərbaycan dinamik inkişaf edən dövlətdir, ölkəmizin dünyada böyük nüfuzu var. Onun sözlərinə görə, son 16 ildə ölkəmizdə böyük inkişaf baş verib: "Bu müddət ərzində görülən işlərə Prezident-xalq birliyi nəticəsində nail olunub. Dünyanın heç bir ölkəsində Azərbaycandakı kimi iqtisadi artım, inkişaf yoxdur. Azərbaycan Prezidenti dünyanın nüfuzlu siyasi xadimləri sırasında yer alır. Doğrudur, həmişə inkişafımızı əngəlləmək istəyən qüvvələr olub, onlar bu gün də var. Amma Prezidentimizlə xalqın birliyi nəticəsində həmin qüvvələrin məqsədləri iflasa uğrayıb".

YAP Sədrinin müavini, həmçinin xaricdəki mühacir azərbaycanlıların yanlış yolda olduğunu deyib. O qeyd edib ki, mühacirlər ələ alınıb, Azərbaycana qarşı istifadə edilirlər: "Bu insanlara qarşı susmaq lazım deyil. İnzibati tədbir görməklə tərbiyə mümkün deyil. Bu, daha çox ictimai qınaq səviyyəsində olmalıdır".

Ölkəmizin yeganə probleminin Dağlıq Qarabağ münaqişəsi olduğunu deyən Əli Həsənovun fikrincə, Azərbaycan Ordusu istəsə, torpaqlarımızı çox qısa müddətdə azad edə bilər. Amma Prezident İlham Əliyev yenidən qan tökülməsini istəmir. Ə.Həsinov bildirib ki, Ermənistanda hakimiyyətə Nikol Paşinyan gələndən sonra məsələnin müsbətə doğru həll ediləcəyinə ümid var idi. Amma Paşinyan da qeyri-konstruktiv yol tutub. Ona görə də, hamı bilməlidir ki, dövlətimiz Dağlıq Qarabağı və işğal olunmuş digər torpaqlarımızı hər an azad edə bilər və edəcək. YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə çıxışında deyib ki, bu gün sosial şəbəkələrin imkanlarından düzgün olmayan şəkildə istifadə edilir: "Bu imkanlardan istifadə olunaraq cəmiyyətdə qarışıqlıq yaratmaq istəyənlər var. Onların arxasında bəzi xarici dairələr dayanır. Həmin insanları maliyyələşdirənlər sırasında erməni lobbisi xüsusi yer tutur". S.Novruzov bildirib ki, xaricdəki mühacir azərbaycanlıların bəziləri Azərbaycanda aparılan işlərə - islahatlara, abadlıq-quruculuq işlərinə kölgə salmağa cəhd edirlər: "Onlar yalan məlumatlar yaymaqla məşğuldurlar. Belə olan halda YAP üzvləri daha fəal olmalıdırlar. Başqa ölkələrin 100 ildə keçə bilmədiyi yolu Azərbaycan qısa müddətdə keçdi. Əgər bir ölkədə ictimai-siyasi sabitlik yoxdursa, orada inkişafdan söhbət gedə bilməz. Azərbaycan sabitlik adasıdır".

S.Novruzov qeyd edib ki, YAP-ın rayon təşkilatları insanlar arasında təbliğat-təşviqat işini gücləndirməlidirlər: "Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin uğurları insanlara geniş şəkildə çatdırılmalıdır. Çünki müəyyən dairələr yalan məlumat yaymaqla ictimai rəyi çaşdırmağa çalışırlar. Hesab edirəm ki, bu dairələr xalqı aldada bilməz. Amma bütün hallarda biz arxayınlaşmamalı, öz işimi fəal şəkildə davam etdirməli, doğru yolla inamla getməliyik".

Tədbirdə həmçinin Sumqayıt Şəhər İcra hakimiyyətinin başçısı Zakir Fərəcov, YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov və YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev çıxış ediblər. Müşavirədə qarşıda duran vəzifələrlə bağlı müvafiq tövsiyə və tapşırıqlar verilib. Sonda YAP sıralarına yeni qoşulmuş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

***Ceyhun Rasimoğlu***

## "Savadsız, yöndəmsiz müxalifətdən iqtidar nə götürəcək?"



"Azərbaycanda yenilənmiş, konstruktiv müxalifət olmalıdır". SİA-nın verdiyi məlumata görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini Əli Həsənov deyib.

Ə.Həsənov bildirib ki, hər kəs ölkədəki inkişafın şahididir: "Bu, həqiqətdir. Həqiqəti də insanlara çatdırmaq lazımdır. Bəzi hallarda neqativ fikirlər səsləndirilir. Azərbaycana müxalifət lazımdır. 2001-ci ildə demişdim ki, müxalifət yenilənməlidir. Yeniləndimi? Xeyr. Xarici qrantların hesabına yaşayırlar, donmuş partiyadan yapışıblar. Azərbaycanda yenilənmiş, konstruktiv müxalifət olmalıdır. Belə olan halda inkişaf daha da sürətlə gedər. Savadsız, yöndəmsiz müxalifətdən iqtidar nə götürəcək? Heç nə".

## Siyavuş Novruzov: "Azərbaycan sabitlik adasıdır"



"Sosial şəbəkələrin imkanlarından düzgün olmayan şəkildə istifadə edirlər. Orada ara qarışdırmağa cəhd edilir". SİA-nın verdiyi məlumata görə, bunu Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Yeni Azərbaycan Partiyasının Sumqayıt şəhər və Qubadlı rayon təşkilatlarının fəalları ilə görüşündə deyib.

S.Novruzov bildirib ki, bu işlərin arxasında bəzi dövlətlər dayanır: "Bu insanların maliyyəçiləri sırasında erməni lobbisi xüsusi yer alır. Xaricdəki mühacir azərbaycanlıların bəziləri Azərbaycanda aparılan işlərə - islahatlara, abadlıq-quruculuq işlərinə kölgə salmağa cəhd edirlər. Onlar yalan məlumatlar yaymaqla məşğuldurlar. Belə olan halda YAP üzvləri aktiv olmalıdırlar. Deyək ki, hansısa paylaşıma şərh yazmırsa belə, məsələn, Heydər Əliyev Mərkəzinin şəklini çəkib paylaşmaqla fayda verə bilər. Göstərsinlər ki, hansı Avropa ölkəsində son 20 ildə Azərbaycandakı qədər işlər görülüb. Azərbaycan və Qazaxıstan istisna olmaqla, post-sovet ölkələrində vəziyyət dəyişməz qalır. Başqa ölkələrin 100 ildə keçə bilmədiyi yolu Azərbaycan qısa müddətdə keçdib".

YAP icra katibinin müavini vurğulayıb ki, əgər bir ölkədə ictimai-siyasi sabitlik yoxdursa, orada inkişafdan söhbət gedə bilməz: "Azərbaycan sabitlik adasıdır. YAP-ın rayon təşkilatlarnın sədrləri insanlar arasında təbliğat-təşviqat işini gücləndirməlidirlər. Düzgün istiqamət verərək yalan məlumat yayanlarla söhbət aparılmalıdır. Bəzi hallarda YAP üzvlərinin çaşdırılması prosesi həyata keçirilir, onları yoldan çıxarmağa cəhd göstərirlər, yalan fikirlər ortaya atırlar. Bunun qarşısı alınmalıdır".

## Sərdar Ünsal: "Ermənistan işğal etdiyi torpaqlardan dərhal çəkilməlidir"



"Ermənilər hər zaman bizə xəyanət ediblər, nə qədər yaxşılıq etsək də, əvəzində pislik görmüşük. Ötən əsrin əvvəllərində Anadolunun şərqində əliyalın xalqımıza qarşı ağır qətliamlar törədiblər. 1992-ci ildə törətdikləri Xocalı soyqırımı da bu cinayətlərin davamıdır." Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının sədr müavini və İğdır Azərbaycan Evi Dərnəyinin rəhbəri Sərdar Ünsal deyib. O, Osmanlı dövlətinin Baş Naziri olmuş Tələt Paşanın qatilinə - erməni terrorçu Soğoman Tehliryana Yerevanda abidənin ucaldılmasını da kəskin pisləyib. Dərnək sədri bildirib ki, Ermənistan işğal etdiyi torpaqlardan dərhal çəkilməli, sözügedən abidə dağıdılmalıdır.

# Heydər Əliyev Fondunun ölkədə və xaricdə həyata keçirdiyi layihələr yüksək qiymətləndirilir

*Beynəlxalq Xeyriyyəçilik Forumu tərəfindən Heydər Əliyev Fonduna "Strateji əməkdaş" statusunun təqdimi reallaşdırdığı layihələrin nəticəsidir*




***İctimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyət, qayğıya ehtiyacı olan uşaqlara, təhsilə diqqət və s. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın humanizm prinsiplərindən qaynaqlanır. Onu da vurğulayaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında müstəsna xidmətləri ilə seçilir. Bu fond təkcə Azərbaycanda deyil, bir sıra məkanlarda geniş aksiyalar həyata keçirir. Bu humanitar və mədəni tədbirlər, artıq beynəlxalq məkana bəlli olan həqiqətdir.***

Heydər Əliyev Fondunun xüsusi diqqət yetirdiyi prioritet sahələrdən biri də ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasıdır. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi əsasında 2006-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə dini abidələr bərpa edilərək, istifadəyə verilib. Qeyd olunan layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb. Layihənin digər tərkib hissəsi "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik Təhsil Mərkəzi inşa olunub. Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi istiqamətində də Azərbaycanda görülən işlər, məhz müasir dövrümüzdə dövlətin bütün millətdən olan insanlara diqqət və qayğı ilə yanaşmasının nəticəsidir. Fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsi təmir və bərpa olunmuşdur. Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də təşəbbüskar olaraq iştirak edib. Heydər Əliyev Fondu xristian aləminin incəsənəti, mənəvi dəyərləri, onun mədəniyyətinin daha da nümunəvi tərzdə parlamasına öz töhfəsini verir. Dünyanın bir sıra nüfuzlu mükafatlarına layiq görülməsi də, elə bu bəşəri dəyərlərə münasibətinin və fəaliyyətinin nəticəsidir.

Qeyd edək ki, Mehriban xanım Əliyevanın beynəlxalq səviyyədə gördüyü işlər cavabsız qalmamış, dünya dövlətləri, nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara və mükafatlara layiq görülmüşdür. Onun hər bir uğuru Azərbaycanın nailiyyəti və yüksəkliyidir. 2005-ci ildə ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə, Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə, sivilizasiyalararası dialoq da daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, təhsilə, həmçinin, islam aləmində görülən işlərə böyük dəstəyinə görə, İSESKO-nun Xoşməramlı Səfiri adına layiq görülüb. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə, "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülməsi Onun dünya miqyasında əməllərinin, birmənalı olaraq, qiymətləndirilməsini əyani olaraq təsdiqləyir. Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə, Mehriban xanım Əliyeva Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeni ilə təltif edildi. Bir il sonra isə, Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə, Fransa Respublikası Prezidentinin Sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edildi. Elə həmin il uğur Onu müşayiət etdiyindən, YUNESKO-nun "Qızıl Motsart" medalı Mehriban xanım Əliyevaya təqdim olundu. Mehriban xanım Əliyeva Türk Dünyası Mədəni İrsinin zəngin parçası olan Azərbaycan Türklərinin Maddi və Qeyri-Maddi Mədəniyyət Abidələrinin Qorunması və Təbliği sahəsində böyük xidmətlərinə görə, TÜRKSAV-ın "Türk dünyasına xidmət" mükafatına layiq görülüb. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın II dərəcəli Müqəddəs Məleksima Knyaginya Olqa ordeni ilə təltif edilməsi də, elə gördüyü işlərin nəticəsidir. Mehriban xanım Əliyevanı bu ordenlə Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə, habelə, Rusiya ilə Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi sahəsində çoxsaylı xidmətlərinə görə, Moskvanın və bütün Rusiyanın patriarxı Kirill təltif edib. Bu yüksək ordenlə kilsə, dövlət və ictimai həyatın müxtəlif sahələrində böyük xidmətləri olan qadınlar təltif edilirlər. Bütün bu və ya digər mükafatlar Mehriban xanımın xidmətlərinə olan mükafat və qiymətdir.

Bu günlərdə isə, Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumu tərəfindən "Strateji əməkdaş" statusu təqdim olunub. Qeyd edək ki, bu status "Çin Xalq Xarici Ölkələrlə Dostluq Assosiasiyası" və "Sülh və İnkişaf üçün Çin Dostluq Fondu" tərəfindən Çin Xalq Respublikasının Şençen şəhərində BMT tərəfindən rəsmi tanınan 4-cü Beynəlxalq Xeyriyyəçilik Forumunda verilib. Tədbirdə Avropa, Amerika və Asiya regionunda fəaliyyət göstərən xeyriyyəçi təşkilatların rəhbərləri və nümayəndələri iştirak ediblər. Forumda Heydər Əliyev Fondunun əsas missiyası, ölkədə və xaricdə həyata keçirdiyi layihələr haqqında məlumat verilib.

Bu, bir daha onu göstərir ki, bəşəri ideyaları ilə dünyaya sülh aşılayan və insanlığı təbliğ edən Azərbaycanın Birinci Xanımının insanlığın tələbinə uyğun addımları daim diqqətdədir.

***Nəzakət ƏLƏDDİNQIZI***



## "Azərbaycandakı multikultural mühit barədə kifayət qədər məlumatlıyam"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı sentyabrın 25-də ABŞ-ın məşhur "John Batchelor Show" proqramının rəhbəri Con Batçelor ilə görüşüb. DQİDK-dan SİA-ya verilən məlumata görə, Komitə sədri xarici jurnalistin Azərbaycanın milli və dini tolerantlığın yüksək inkişaf mərhələsinə çatmasının səbəbləri, tolerantlığın təbliği və təşviqi yönündə görülən işlər, xalqımızın nümunəvi birgəyaşayış modeli, DQİDK-nin fəaliyyət istiqamətləri, eləcə də bu il iyulun 16-18-də Vaşinqton şəhərində keçirilmiş Din Azadlığının İrəlilədilməsi üzrə 2-ci Nazirlər Konfransının mahiyyəti barədə suallarını cavablandırıb.

Komitə sədri bildirib ki, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən din siyasəti dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin daha da möhkəmlənməsinə yönəlib.

Azərbaycan əhalisinin böyük hissəsinin İslam dininə mənsub olduğunu qeyd edən Komitə sədri ölkəmizdə müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini deyib. Respublikada dövlət qeydiyyatına alınan icmalardan 35-nin qeyri-İslam təmayüllü olduğunu diqqətə çatdıran DQİDK sədri bildirib ki, ölkəmizdə dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini qoruyub-saxlamaq imkanına malikdir. Mübariz Qurbanlı, eyni zamanda, Azərbaycanda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyət göstərdiyini, dünyanın 20-dən çox universitetində Azərbaycan multikulturalizm modelinin bir fənn kimi tədris edildiyini, eyni zamanda, bu istiqamətdə müxtəlif ölkələrdə tədbirlərin keçirildiyini bildirib.

Azərbaycandakı dinlərarası harmoniya, multikultural mühit barədə kifayət qədər məlumatlı olduğunu deyən Con Batçelor bildirib ki, səfərinin əsas məqsədi ölkəmiz haqqında daha geniş məlumat əldə etmək və bu informasiyaları ABŞ-da yaymaqdır.

Qeyd edək ki, "John Batchelor Show" proqramı dünyanın 100-dən artıq ölkəsində ingilisdilli auditoriyalar tərəfindən dinlənilir. Proqramın bir neçə milyonluq daimi dinləyici kütləsi var. Veriliş 200-dən artıq radio tərəfindən təkrar yayımlanır. Görüşün sonunda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

## DSX və DİN-in Astarada keçirdiyi birgə əməliyyat nəticəsində beş kiloqramdan çox narkotik maddə götürülüb



Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi və narkotik vasitələrin ölkə ərazisinə qeyri-qanuni gətirilməsinə qarşı mübarizə sahəsində tədbirlər davam etdirilir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 21-də saat 23:00 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Deqadi kəndi yaxınlığında Daxili İşlər Nazirliyinin Astara Rayon Polis Şöbəsinin əməkdaşları ilə birgə keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ərazidə gizlədilmiş bir bağlama aşkarlanaraq götürülüb. Baxış zamanı bağlamada 5 kiloqram 95 qram tiryək olması müəyyən olunub. Narkotik vasitəni əraziyə gətirən və cinayətdə əlaqəsi olan şəxslərin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri aparılır.

# YAP Binəqədi rayon təşkilatı ərazi ilk partiya təşkilatının yığıncağı keçirildi

***YAP Binəqədi rayon təşkilatının Binəqədi rayonu, Səttar Bəhlulzadə 44 ünvanlı ərazi ilk partiya təşkilatının yığıncağı keçirildi. İclası ərazi ilk partiya təşkilatının üzvü Elnur Əliyev açaraq, görülən işlərdən və qarşıda duran vəzifələrdən danışdı.***




Tədbirdə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxış edərək, son vaxtlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə aparılan sosial, iqtisadi, struktur və kadr islahatları nəticəsində, əldə edilən uğurlardan ətraflı danışdı. Bu uğurların əldə edilməsində və təbliğində Yeni Azərbaycan Partiyasının rolunu qeyd etdi.

R.Göyüşov, eyni zamanda, ölkəmizdə əldə edilən uğurları, nailiyyətləri gözü götürməyən anti-Azərbaycan qüvvələrin, istər ölkə daxilində, istərsə də ölkə xaricində dövlətimizin əleyhinə çirkin təbliğat və qarayaxma kampaniyaları apardıqlarını diqqətə çatdırdı. Bu vasitələrdən birinin də sosial şəbəkələr vasitəsilə aparıldığını vurğuladı. Rayon təşkilatının sədri belə kampaniyalara qarşı hər bir YAP üzvünün mübarizə aparmasının, onların ifşa olunaraq, əsl niyyətlərinin cəmiyyətimizə təqdim olunmasında, ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal mövqe nümayiş etdirməsinin zəruri olduğunu qeyd etdi.

Sonda təşkilati məsələlərə baxıldı. YAP Binəqədi rayon təşkilatının Binəqədi rayonu, Səttar Bəhlulzadə 44 ünvanlı ərazi ilk partiya təşkilatının yeni idarə heyəti, sədri və sədr müavinləri seçildi.

***Zümrüd BAYRAMOVA***

# YAP Yasamal rayon təşkilatında "Nəsimi İli" çərçivəsində tədbir keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatında "Nəsimi İli" çərçivəsində tədbir keçirilib. İlk olaraq, tədbir iştirakçıları rayon təşkilatının foyesindəki Ulu Öndər Heydər Əliyevin büstünü ziyarət edib, önünə gül dəstələri düzərək, xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov 2019-cu ilin "Nəsimi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 yanvar tarixli Sərəncamının tarixi əhə-





miyyətindən danışaraq, "Nəsimi İli" çərçivəsində ölkəmizdə geniş səpkidə tədbirlərin reallaşdığını diqqətə çatdırıb. Təşkilat sədri qeyd edib ki, ictimai-fəlsəfi şeirləri ilə Azərbaycan ədəbiyyatında xüsusi yer tutan Nəsiminin ilk dəfə yubileyinin ölkəmizdə keçirməsinin təşəbbüskarı Ulu Öndər Heydər Əliyev olub. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin yubileyinin UNESCO səviyyəsində qeyd edilməsi Azərbaycan tarixində olduqca fövqəladə hadisəyə çevrilmişdi.

Tədbirdə filologiya elmləri doktoru, professor Vüqar Əhməd çıxış edərək, "Nəsimi İli"nin önəmindən, böyük mütəfəkkirin zəngin yaradıcılıq palitrasından danışıb. O, İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Prezidentinin məlum Sərəncamının ölkəmizin mədəni həyatında əlamətdar və təqdirəlayiq hadisə olduğunu vurğulayıb. Qeyd edib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Şamaxıda Nəsimi günləri keçiriləcək: "Nəsimi yaradıcılığında bütün bəşəri dəyərləri nəzmə çəkib. Böyük söz ustadının əsərləri həm doğma ana dilində, bəziləri isə, bir sıra xarici dillərdə nəfis şəkildə nəşr olunub. Sovet dövründə Nəsimi ateist bir şair kimi təqdim olunsa da, onun yaradıcılığının böyük bir hissəsi "Qurani-Kərim"ə əsaslanır".

Tədbirdə çıxış edən filologiya üzrə fəlsəfə doktoru Qürbət Mirzəzadə altı yüz əlli il öncə, yaşayıb-yaratmasına baxmayaraq, şairin ana dilimizi və bədii sözü yeni-yeni zirvələrə qaldırdığını diqqətə çəkib. "Şair və mütəfəkkir İ.Nəsiminin 650-ci ildönümünün qeyd edilməsi üçün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müvafiq Sərəncamın verilməsi şairə verilən ən yüksək dəyərin göstəricisidir" deyən Q.Mirzəzadə bu Sərəncamın onun yaradıcılıq irsinin daha dərindən öyrənilməsinə, yeni tədqiqatların aparılmasına imkanlar açdığını vurğulayıb.

Sonra Bakı Dövlət Universitetinin və Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbələri Nəsiminin qəzəllərini ifa ediblər.

Tədbir Azərbaycan Milli Konservatoriyasının nəzdindəki İncəsənət Gimnaziyasının şagirdləri tərəfindən hazırlanmış Nəsimiyə həsr olunmuş səhnəciklə davam etdirilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Gürcüstanın şəhərlərində Naxçıvan Muxtar Respublikasının ticarət evləri açılacaq"



Azərbaycan bizim strateji tərəfdaşımızdır, iqtisadi, humanitar, turizm sahələrində əlaqələrimiz yüksək səviyyədədir. Dostluq münasibətlərimizin fonunda regional əlaqələrimiz də inkişaf edir. Bu əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının özünəməxsus yeri var. Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində muxtar respublikada səfərdə olan Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze söyləyib.

Diplomat deyib: "İlyarım bundan əvvəl Naxçıvanda olmuşdum və bu gün gördüm ki, qısa zamanda müsbət mənada xeyli dəyişikliklər baş verib, yeni müəssisələr açılıb, infrastruktur yenilənib, çoxfunksiyalı "Saat meydanı" yaradılıb. Qısa səfərim çərçivəsində qabaqcıl sənaye müəssisələri ilə tanış oldum, ikitərəfli əlaqələrimizin inkişafı üçün geniş imkanların mövcudluğunu bir daha gördüm. Tezliklə Azərbaycan və Gürcüstan hökumətlərarası komissiyasının iclası keçiriləcək, eləcə də biznes forum olacaq. Bu çərçivədə gürcü sahibkarların Naxçıvan Muxtar Respublikasını da ziyarət etməsi nəzərdə tutulur. Bunun ikitərəfli regional əməkdaşlığa müsbət təsir göstərəcəyini düşünürəm. Regionlarımız arasında turizm əlaqələrinin də inkişafı üçün potensial mövcuddur. Səfər zamanı burada dağ-xizək və müalicə turizm sahələrinin də inkişaf etdiyini gördük. Yeri gəlmişkən, gürcü uşaqların Duzdağ Fizioterapiya Mərkəzində müalicə almasına göstərdiyi köməyə görə də muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm".

"Gələcəkdə qarşılıqlı olaraq turizm potensialının tanıdılması üçün mediaturlar təşkil etməyi düşünürük, həmçinin iqtisadi sahədə də əməkdaşlıq üçün müəyyən qərarlar qəbul etmişik. Gürcüstanın müxtəlif şəhərlərində Naxçıvan Muxtar Respublikasının ticarət evlərinin açılmasını razılaşdırmışıq, əlaqələrin inkişafı üçün əlimizdən gələni etməyə çalışacağıq. Ümidvaram ki, birgə səylərimiz öz müsbət nəticələrini verəcək", - deyə Zurab Pataradze bildirib.

# Çin səfəri

## (Yol qeydləri və qüdrətli ölkə haqqında düşüncələr)

**(Əvvəli ötən sayımızda)**

Cavab nitqi söyləyən nümayəndə heyətimizin başçısı Hadi Rəcəbli Çini sürətli inkişaf edən, Azərbaycana dost olan qüdrətli dövlət, dünyanın iqtisadi güc mərkəzlərindən biri adlandırdı. Hadi müəllim Çinin inkişafının əsas səbəblərini belə xarakterizə etdi:

- sabitlik;
- kadrların düzgün seçilib yerləşdirilməsi;
- inzibatçılıq və planlaşdırma;
- peşəkarlıq və elmi yanaşma;
- əmək məsuliyyəti və nəzarət;
- nəticəyə hesablanmış konkret fəaliyyət və hesabatlılıq.

Sonra qeyd etdi ki, Azərbaycan bu layihənin uğurla reallaşmasına maraqlı olan ölkə kimi Çinin yaxın tərəfdaşıdır və Çin hökuməti bizim ölkəmizlə münasibəti daha yüksək səviyyəyə qaldırmaqla Qafqaz regionunda daha səmərəli nəticələr əldə edə bilər. Azərbaycan bu layihədən böyük dividendlər gözləyir. Layihənin reallaşması nəticəsində yük dövriyyəsi Transxəzər hövzəsində 3 dəfə artacaq, yüklərin mənzil başına çatdırılması vaxtı isə 3 dəfə qısalacaq.

Hadi müəllim çıxışını belə bir müdrik aforistik notla bitirdi:

- "Bir kəmər, bir yol" layihəsi işə düşəndən sonra dünyanın şalvarı belində daha



*Musa Urud, Millət vəkili, YAP Siyasi Şurasının üzvü.*

möhkəm dayanacaq. Söhbətin bu yerində ürəyimdən keçdi ki, söyləyim:

- Allah ağzından eşitsin Hadi müəllim! Gündən-günə abırdan düşən bu dünyanı tumançaq görməyi heç istəmirəm.

Hadi müəllimdən sonra söhbətə qoşulan millət vəkili Tahir Mirkişili "Bir kəmər, bir yol" layihəsi barədə fikirlərini söylədi. Onu da qeyd edim ki, səfər proqramımız tərtib olunanda "Bir kəmər, bir yol" müzakirəsi nəzərdə tutulmamışdı. Bu məsələ sonradan məhz Tahir müəllimin təşəbbüsü nəticəsində gündəliyə salındı. Tahir müəllim başqa bir meqalayihə - Transxəzər rəqəmsal ipək yolu - optik kəmər layihəsi barədə məlumat verdi. Bu regional layihənin əsas oyunçusunun Azərbaycan olduğunu qeyd edərək Çin hökumətinin bu layihədə aktiv yer almasının gərəkliliyini vurğuladı.

Müzakirələrdə çıxış edən millət vəkili, professor Sahibə xanım Qafarova iqtisadi layihələrlə yanaşı humanitar layihələrə də önəm verilməsinə diqqət çəkdi. O Azərbaycan və Çin arasında tələbə mübadiləsi və elmi-texniki əməkdaşlıq müqavilələsinin vacibliyini vurğuladı.

Tədbirin sonunda bizim Can dediyimiz, amma əsl adı Zhang Zhenkun olan köhnə dostumuz bu gün Çin xalqının milli bayranmı olan - Ay bayramı olduğunu qeyd etdi. Yeni Ayın tam göründüyü 13 sentyabr günü bunlarda mehribanlıq, harmoniya günü, ailə bayramı kimi qeyd olunur, Bu günün bayram yeməyi bütöv qızardılmış Çin ördəyi sayılır. Can bizim hamımızı təbrik etdikdən sonra ziyafətə - bayram ördəyi yeməyə dəvət etdi.

Çinin yemək mədəniyyəti bizimkindən çox fərqli və mürəkkəbdir. Əvvəla bu xalq tarixən çox aclıq çəkmişdir və hər şeyi yeməyi vərdiş etmişdir. Çinlilərin təsəvvürünə görə üzən, sürünən, qaçan, uçan nə varsa hamısını yemək olar. Onların bu deyimi də var: Dünyada pis qida yoxdur, pis aşbaz var. Çinlilər harda gəldi, necə gəldi yeyirlər. Biz mağazada piştaxta arxasında, küçədə səki üstündə, yol gedə-gedə əlində xörək yeyən adamlara bəlkə də təəccüblə baxarıq, amma Çində bu, adi həyat normasıdır.

Başqa bir mürəkkəblik ondadır ki, çinlilər müxtəlif qidaları, əti-balığı, balığı-quşa, qurbağanı-soxulcana, kəpənəyi-tıspaga yumurtasına qarışdırıb müxtəlif yağlar və siroplarla turşularla birlikdə yeyə bilirlər.

Çində rəsmi ziyafətlərdə 18 cür yemək verilməsi protokol qaydasında təsbit edilmişdir. Deyilənə görə, Mao Tze Dunun rəhbərliyi zamanı rəsmi ziyafətlərdə protokol qaydasında 36 cür yemək verilərmiş, sonralar bu rəqəm iki dəfə azaldılaraq 18-ə endirilmişdir.

Canın "Ay bayramı" ziyafətində də protokola uyğun olaraq 17 yemək süfrəmizə gəlib qayıdandan sonra ziyafətin əsas yeməyi ördəyin doğranması mərasimi başladı. İri gümüş məcməyidə bütöv qızardılmış iki ördək salona gətirildi. Milli bayram geyimində iki aşbaz ördəkləri böyük şövq və ustalıqla doğramağa başladılar. Burada əsas məsələ iti bıçaqla ördəyin dərisini nazik laylarla kəsib xırda-xırda doğramaq, sonra ördəyin ağ və qara tikələrini xırdalamaq, bu tikələrin üzərinə bir parça qızardılmış dəri və soğanabənzər acı bir bitki əlavə edib bizim yuxaya bənzəyən çörək parçasına dürmək kimi bükərək kiçik nimçələrdə qonaqlara payladılar.

Bu ziyafətdə Can özünün masabəyilik istedadını tam ortaya qoydu. Əvvəl söylədi ki, bir ev üstə gəl bir müəllim bərabərdir məktəb. Bir ev üstəgəl iki adam bərabərdir ailə. Və müəllimlərimiz bizə öyrədib ki, ailədə harmoniya olanda dövlətdə də sabitlik olur. Ona görə də bayram günündə sizin ailənizə harmoniya, dövlətinizə sabitlik arzu edirəm. Canın sonrakı "etirafı" isə bizi lap çaşdırdı; o söylədi ki, mən Azərbaycanı sizin hamınızdan çox sevirəm, "Azərbaycan" sözünün sonu "can" hecası ilə bitir, sizin heç birinizin adında can sözü yoxdur, mənim isə adım Candır. Canın rus dilinin qol-qabırğasını sındıra-sındıra söylədiyi bu sözləri alqışlamaqdan başqa çarəmiz qalmamışdı.

Əslində, Canın adının ("Zhang" yazılır, "Çanq" oxunur) mənası - "general" demək imiş. Burada Tayvan hökumətinin başçısı, hərbi və siyasi xadim, general Can Kay Şi (Chiang Kai-shek) yadıma düşdü. Bir də o yadıma düşdü ki, bu general mənasını verən "cang" sözü fars dilindəki "cəngi", "cəngavər" sözləri ilə necə də yaxındır. Görəsən hansı dildən hansına keçib. Bir də düşündüm ki,




dünya doğrudan da çox kiçikdir.

### Böyük Çin səddi

"Ay bayramı"nı Çinli dostlarımızla birgə qeyd edəndən sonra nümayəndə heyətimiz dünyanın yeddi möcüzəsindən biri sayılan "Böyük Çin səddi"ni görmək üçün yola çıxdı. Bu tikili haqqında dünyanın bütün ensiklopediyalarında, internet şəbəkəsində geniş məlumat olduğunu nəzərə alaraq bu yazıda qısa məlumat və öz təəssüratlarımı bölüşməklə kifayətlənmək istəyirəm. "Böyük Çin səddi" bəlkə də dünyanın ən uzun müddət davam edən tikinti layihəsidir. Belə ki, bizim eradan əvvəl üçüncü əsrdə Çin ərazisində tikintisi başlanmış bu qala-divar düz 1900 il - yeni 16-cı əsrin ortalarına qədər tikilməkdə davam etmişdir. Təbii ki, tarixi və hərbi zərurətdən...

Bizim eranın üçüncü əsrində Çin ərazisində yaşayan müxtəlif tayfaları artıq bir dövlətdə birləşdirmək mümkün olmuşdu və köçərilikdən oturaq həyat tərzinə keçən Çin xalqı kəndlər, qəsəbələr salır, ticarət qurur, istehsalla məşğul olur, dövlət get-gedə varlanırdı. Çinin qonşuluğunda yaşayan hunlar tez-tez Çinə basqınlar edir, kəndləri, şəhərləri çapıb-talayır, əhalini soyub var-yoxdan çıxarırdılar. Məhz ardı-arası kəsilməyən hun hücumlarından qorunmaq üçün imperator Tsin Sinxuan İnşan dağlarının üzərindən Böyük Çin səddinin çəkilməsinə qərar verir. Səddin tikintisinə bir milyon insan, o vaxtkı Çin əhalisinin beşdə biri cəlb olunur. Bəzi tarixi mənbələrdə qeyd olunur ki, Tsin Şinxuanın bu qərarından hələ 600 il əvvəl Çinin müxtəlif tayfa-dövlətləri torpaq hasarlarla öz ərazilərini hunlardan qorumaq üçün tikililər tikmişdilər.

Böyük Çin səddinin ümumi uzunluğu 21,5 km, eni 5-6 km, hündürlüyü isə relyefdən asılı olaraq 7,5-11 metrə çatır.

Çin dövləti son zamanlar bu böyük səddin 5,6 km hissəsini bərpa edərək turistik zonaya çevirmişdir. Biz məhz Pekin yaxınlığındakı Badalin bölgəsində Böyük Çin səddini ziyarət etdik. Buraya gündə minlərlə turist gəlir. Çin səddinin bu hissəsi gündə büdcəyə 1,5-2.0 milyon dollar qazanc gətirir. Səddin keşikçi qülləsinə qalxan saysız hesabsız pilləkənləri yonulmuş çay daşındandır. Pilləkənlər arası hündürlük çox olduğundan hər adam rahatlıqla bu pilləkənləri qalxa bilmir. Biz 2-ci qülləyə qalxıb dövlət bayrağımızla yanaşı, partiyamızın - Yeni Azərbaycan Partiyasının bayrağını da başımızın üzərinə qaldırıb Çinə və dost Çin xalqına salam dedik.

Partiyamızın gəncləri Böyük Çin səddinin üzərində bayraqlarımızı başlarının üzərinə qaldırdı bu yerlərdə rəhmətlik Prezident Əbülfəz Elçibəyin "Biz bayrağımızı Çinə, Hindistana sancacağıq" - sözləri yadıma düşdü və içimdən acı bir təəssüf hissi keçdi. Bəli, tarix boyu rəhbərlərin reallığa uyğun olmayan, cəfəng qərarlarından xalq həmişə əziyyət çəkib, necə ki, Böyük Çin səddinin çəkilməsi milyonlarla çinlinin qanı, ölümü, əzabı, səfaləti hesabına başa gəlib, amma Çini düşmən hücumlarından qoruya biləyib: nə hunlardan, nə monqollardan, nə mancuriyalılardan.

İçimdən bir qorxu hissi də keçdi ki, dünyanın belə düzənində nə vaxtsa Azərbaycan bayrağını Qarabağ torpaqlarında yelləmək bizə qismət olacaqmı? Amma turist kimi yox!!!

Çin səddində olarkən xəbər tutduq ki, Yəmənin dron-bombaları Səudiyyə Ərəbistanının neft emalı zavodlarını alt-üst edib. ABŞ prezidenti Donald Tramp da bəyanat verib ki, Yəmənin belə gücü yoxdur. Bu, İranın işidir və əgər komissiya sübut etsə ki, bu işi görən İrandır, onda ABŞ ordusu İranı vuracaq. Bir daha əmin oldum ki, bu etibarsız dünyada etibarlı tərəfdaş tapmaq çox çətindir. Bir daha əmin oldum ki, Çindən bərk yapışmalıyıq!

### Pekin-Şanxay ekspresi

Çin sürətli dəmir yolu sahəsində dünyada birincidir,- desək yanılmarıq. Həqiqətən də dünyada sürətli elektrik qatarları istehsal edən əsas iki dövlətdən biri Fransa, digəri isə Çindir. Çində istehsal olunan müasir sürət qatarları həm texniki göstəricilərinə, həm də komfortuna görə, həmçinin sürətli qatar yollarının çəkilməsində də Çin dünya birincisidir. Hazırda bütün dünyada sürət qatarları üçün çəkilən 28 min km yolun 22 mini Çinin payına düşür.

Biz Pekindən Şanxaya sürət qatarı ilə yola düşəndə bu qatarın nə qədər yüksək məziyyətləri olduğunu gözlərimizlə gördük.

Əvvəla qatar kifayət qədər böyükdür. Bu ekspress 17 vaqonun hər birində 50 sərnişin olmaqla bir dəfəyə 850 adamı daşıya bilər. Qatarda hər cür rahatlıq nəzərdə tutulub: rahat, yumşaq, enli kreslolardan tutmuş inter-

# Çin səfəri

## (Yol qeydləri və qüdrətli ölkə haqqında düşüncələr)



net şəbəkəsinə qədər. Yol boyu sendviç verilir, su, qəhvə, çay təklif olunur. Bundan əlavə pulla digər yemək, meyvə və şirniyyatlar da almaq olar.

Pekinlə Şanxay arasındakı məsafə 1250 km-dir. Bu yolu 4 saat 15 dəqiqəyə gəldik. Qatarın maksimal sürəti 350 km/saat, orta sürəti 285 km/saat təşkil edir. Yolun rahatlığına söz ola bilməz. Qatar gedərkən bizim vərdiş etdiyimiz taqqıltıdan, silkələnmədən söhbət belə gedə bilməz. Əslində bu sürət qatarını hərtərəfli inkişaf edən Çinin simvollarından biri hesab etmək olar.

İnkişaf edən Çinin digər simvolu isə heç şübhəsiz ki, Şanxay teleqülləsidir. Şanxaya günorta çatdıq. Çin Kommunist Partiyasının əzəmətli, gözəl həyəti, geniş, yaşıl ağaclarla zəngin parkı olan qonaq evində dincəlib nahar edəndən sonra Şanxay teleqülləsinə getdik. Teleqüllə Xuanpu çayının sağ sahilində 1990-1994-cü illərdə tikilib. Hündürlüyü 468 metrdir. "Şərqin mirvarisi" adlandırılan bu teleqüllə hündürlüyünə görə Asiyada 3-cü, dünyada isə 5-ci yerdədir.

Teleqüllənin birinci mərtəbəsində Şanxay şəhərinin tarixini əks etdirən gözəl bir muzey fəaliyyət göstərir, muzeyin canlı personajlardan o qədər də fərqlənməyən eksponatları mumdan hazırlanmışdır. Teleqüllənin 259-cu metrində dünyada yeganə olan şüşə koridora çıxdıqda Şanxay şəhəri sözün əsl mənasında adamın ayağının altında qalır.

Teleqüllənin 267-ci metrində fırlanan restoran yerləşir. Restoranın dövr etmə sürəti çox deyil, demək olar ki, hiss olunmur. Amma 1 saat ərzində tam dövr edən qüllə-restoranda həm ləzzətli yemək, həm də şəhəri seyr etmək bizə maraqlı anlar yaşatdı. Bilet o qədərdə baha deyil (Çin qiymətləri ilə) - 60 dollarlıq bilet həm seyr etmək, həm də "açıq bufet" stilində restoranda ləzzətli şam etmək mümkündür.

Xuanpu çayında gəmi ilə gecə gəzintisi çıraqban Şanxayın gecə görüntüsünü seyr etməyin ən yaxşı vasitəsidir ki, çinli dostlarımız bu imkanı da bizə yaratdılar.

Şanxay öz ruhu olan, qədimliyi ilə müasirliyi bir yerdə yaşadan iri sənaye şəhəri, dünyanın ən böyük meqapolislərindən biridir. Şanxayın illik büdcəsi 70 milyard dollara yaxındır, adam başına düşən ÜDM 18 mun dollar təşkil edir. Bu şəhərdə 24 milyondan çox insan yaşayır, gündə milyondan çox insan isə turist kimi gəlib-gedir.

Şanxay səfərimizin ikinci günü Şanxaydan avtomobillə 1 saatlıq məsafədə olan qədim Fundin şəhərini gəzdik. Buraya yalnız orta əsrlərin ölçüsündə şəhər demək olar. Bu muzey şəhərə son illərdə qəsəbə statusu verilib ki, işsiz insanlar buranı tərk etməsinlər. Şəhərin 1500 ildən çox yaşı var. Qədim dövrlərdə tikilən evlər, küçələr, su kanalları restavrasiya olunub, işlək vəziyyətdədir. Qəsəbə içi kanalda köhnə avarlı taxta qayıqda gəzinti turist marağına uyğun düşünülüb. Bu şəhərdən Çində tanınmış alimlər, yazıçılar, rəssamlar çıxıb. Şəhər kiçik olsa da 100 mindən çox əhalisi var və bu Çin üçün o qədər də böyük rəqəm sayılmır.

Çin Kommunist Partiyası Şanxay şəhər təşkilatının büro üzvü, Şanxay şəhəri birləşmiş maliyyə Fondlarının rəisi (maliyyə naziri) cənab Cun Qan Mio ilə görüşümüz qaldığımız qonaq evinin çox saylı konfrans zallarının birində baş tutdu.

Bu, bizim həm Şanxayda, həm də elə bütövlükdə, səfər ərzində sonuncu rəsmi tədbirimiz oldu. Nümayəndə heyətinin başçısı Hadi Rəcəblini və heyət üzvlərini öz ifadəsi ilə desək, "alovlu kommunist salamları" ilə salamlayan cənab Mio Şanxay şəhərinin inkişafından həvəslə danışdı. O qeyd etdi ki, Şanxay şəhəri Çinin və dünyanın ən böyük maliyyə dövriyyəsi olan liman şəhərlərindən biridir. Şanxayın əsas inkişaf tarixi 1843-cü ildə Birinci tiryək müharibəsi bitəndən sonra bağlanmış "Hankin müqaviləsi" əsasında bu şəhərin limanlarının xarici ölkələrin gəmilərinə açıq elan edilməsi ilə başlayıb. Bu zamandan etibarən Şanxayda ingilis, alman və fransız koloniyaları yaranıb və şəhərə Avropa təhsili və idarəetmə üsulu gətirilib.

Sonunda ehtiyatla qeyd etdi ki, Azərbaycanla Şanxayın ticarət əlaqələri çox zəngin deyildir. İllik maliyyə dövriyyəsi cəmi 4 milyon ABŞ dolları təşkil edir.

Cavab nitqi ilə çıxış edən Hadı müəllim nəzakət ifadə edən sözlərdən sonra Azərbaycanın uğurlarından danışdı, Çinlə və Şanxay şəhəri ilə əlaqələrimizin "Bir kəmər, bir yol" layihəsi vasitəsi ilə daha da inkişaf edəcəyini, ticarət dövriyyəmizin 4 milyard dollara çatacağına ümidlə baxdığımızı söylədi. Hadi müəllimin bir cəngavər qətiyyəti və gənclik nikbinliyi ilə söylədiyi bu son fikirləri Şanxayın maliyyə naziri diplomatik bir təbəssümlə qarşıladı: bu, hamımızın arzusudur!

Görüşün sonunda xatirə şəkli çəkdirdik və bir-birimizə hədiyyə-suvenirlər təqdim etdik. Çun Qan Mionun Azərbaycan nümayəndə heyətinin şərəfinə verdiyi ziyafətdən sonra Pekinə dönmək üçün Şanxay hava limanına yola düşdük.

Şanxayda da, Pekində də hava limanında insanlar yaz qarışqaları kimi qaynaşır, olduqca böyük sıxlıq və hərəkətlilik olan bu məkanda səfər yoldaşlarından aralanmaq fəlakət kimi bir şeydir. Çinli məmurların çoxu öz dillərindən başqa dilləri bilmir, ya da çox pis danışırlar. Amma bununla belə, kommunist nizam-intizamı, ciddi nəzarət-yoxlama sistemi hər addımda özünü göstərir.

Biz diplomatik statuslu nümayəndə heyəti olaraq aeroportun VİP xidmətindən istifadə etsək də, ümumi qaydada gömrük, pasport, sərhəd xidməti yoxlamasından keçdik. Deyilənə görə, Çin hava nəqliyyatı dünyada ən ciddi nəzarət olunan və təhlükəsizliyi yüksək səviyyədə təmin edilən xidmətlərdən biridir. Çində bütün infrastruktur obyektləri bizim adət etmədiyimiz səviyyədə böyük tikilir və çox funksiyalı olur. Bu da təbiidir. Bir var obyekti 10 milyon əhalisi olan ölkə, yaxud 300-500 min sakini olan şəhər üçün nəzərdə tutasan, bir də var əhalisi milyonlarla ölçülən şəhərlərdə. Buna baxmayaraq Çində torpağın hər qarışının qədrini bilirlər və ərazidən səmərəli istifadə etməyi bacarırlar.

### Səfərin yekununun müzakirəsi

Pekin hava limanında bizi Azərbaycanın ÇXR-da fövqəladə və səlahiyyətli səfiri Əkrəm Zeynallı başda olmaqla səfirliyimizin diplomatik heyəti qarşıladı.

Xoş təsadüfdən Əkrəm müəllim də vacib bir səfəri təşkil etmək üçün bizimlə birlikdə Bakıya uçacaqdı. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin sədri Oktay Əsədovun dəvəti ilə 19 sentyabr 2019-cu il tarixdə Çinin Ali qanunverici orqanı olan Ümum Çin Xalq Nümayəndələri Yığıncağının sədri Li Cansu böyük tərkibdə nümayəndə heyəti ilə Bakıya səfərə gələcəkdir. Yeri gəlmişkən qeyd edim ki, bu səfər Azərbaycan-Çin münasibətləri tarixində Çinin ən yüksək səviyyəli nümayəndə heyətinin səfəri olacaqdır.

Bakıya yolçuluğumuza başlamağa beş saatdan çox vaxt qalırdı. Əkrəm müəllimin təklifi ilə bu vaxtı hava limanının salonunda deyil, yaxınlıqdakı alman restoranında çay süfrəsi arxasında səfərimizin yekunları və gələcək perspektivləri müzakirə etməklə keçirdik.

Ümumi qənaətimiz bu oldu ki, Çin Kommunist Partiyasının dəvəti ilə Yeni Azərbaycan partiyasının nümayəndə heyətinin Çinə 7 günlük səfəri uğurlu olmuşdur və qarşıya qoyulan vəzifələr yerinə yetirilmişdir.

İkinci qənaətimiz ondan ibarət oldu ki, Çin-Azərbaycan münasibətlərinin yeni mərhələsində daha yüksək hədəflərə çatmaq imkanları kifayət qədər genişdir və bu istiqamətdə həm partiyalarımız arası, həm də parlament münasibətlərini daha da intensivləşdirmək, qarşıya konkret məqsədlər qoymaq və bu məqsədlərə çatmağın optimal yolları haqqında düşünməliyik.

Daha bir qənaətimiz ondan ibarətdir ki, münasibətlərin inkişafında aktiv tərəf rolunda biz çıxış etməliyik, daha doğrusu bizim Çinə ehtiyacımız daha çoxdur, nəinki Çinin bizim yardımımıza.

Çin şirkətlərini Azərbaycana investisiya qoymaq üçün dəvət etməliyik və onlara şərait yaratmalıyıq. Çin Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır və Dağlıq Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. Eyni zamanda Çin son zamanlar Ermənistanla intensiv şəkildə iqtisadi, ticari, hərbi və humanitar əlaqələr qurur, investisiyalar yatırır, hərbi yardımlar göstərir. Ermənistan ildə 200-dən artıq tələbəni Çinə təhsil almağa göndərir (biz isə 50 nəfər!). Ermənistanda Çin dili sinifləri açılır. Bu gələcəkdə Çinin mövqeyinin Qafqazda Ermənistana tərəf meyllənməsinə hesablanmış addım kimi təhlükəlidir.

Həm istehsal, həm idxal, həm də ixrac baxımından Çin olduqca böyük bir bazardır və bu bazarda yer tutmaq, qeyri-neft məhsullarımızı, xüsusilə meyvə-tərəvəz və emal məhsullarımızı, şərabımızı bu bazara çıxara bilsək bizim heç bir ölkəyə, o cümlədən, siyasi iddiaları, maraqları və təhdidləri heç zaman əksilməyən Rusiya bazarına ehtiyacımız olmaz. Hal-hazırda Çinlə qeyri-neft məhsullarının dövriyyəsi xeyli aşağıdır və cəmi 28 milyon dollar təşkil edir.

"Bir kəmər, bir yol" layihəsi ilə Çindən Avropaya gedən dəmir yolları üç istiqamətə şaxələnir: Çindən Rusiya üzərindən Avropaya; Çindən İran üzərindən Avropaya; Çindən Transxəzər-Azərbaycan, Gürcüstan üzərindən Avropaya.

Biz əgər Çindən Avropaya daşınan yüklərin cəmi 5%-i götürə bilsək, büdcəmizə neft-qaz sektorundan gələn gəlir qədər vəsait toplanmış olacaq. Bu isə çox çətin bir məsələdir, ən azı iqtisadi hesablamalarda ən diqqətli və siyasi münasibətlərdə son dərəcə ehtiyatlı olmalıyıq. Çünki Azərbaycandan keçən hər bir vaqon, yaxud konteyner Rusiyadan və İrandan keçməyən bir vaqon və ya konteyner deməkdir.

Nəhayət, münasibətlərimizin yeni mərhələsi üçün Azərbaycan insanını, sahibkarının, tələbəsinin, turistinin Çin haqqında formalaşmış köhnə, kasıb, qeyri-demokratik, geridə qalmış, keyfiyyətsiz mal istehsalçısı Çin təsəvvürü streotipi dəyişməlidir.

Çini yaxşı tanımaq üçün gedib-gəlmək, turistik, humanitar, mədəni əlaqələri yüksəltmək lazımdır. Bundan ötrü qardaşlaşmış şəhərlər layihəsini genişləndirməyə ehtiyac vardır.

Müzakirələrimizin sonunda ümumi rəyə gəldik ki, Çin səfərimiz barədə təəssüratlarımızı, görüşlərin nəticələri barədə geniş arayış hazırlayaq və həmin arayışı nümayəndə heyətimizin başçısı Hadi Rəcəbli YAP sədrinin müavini və icra katibi, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədova təqdim edək.

Sentyabrın 17-i saat 0115 -də AZAL-a məxsus təzə, komfortlu Boing 767-800 təyyarəsi Pekindən Bakı istiqamətində havaya qalxdı.

...Təyyarədə saatlarımızı Bakı vaxtına uyğunlaşdırdıq.

...Çin zaman etibarı ilə Azərbaycandan dörd saat qabaqdadır.

...Sentyabrın 17-i Bakı vaxtı ilə saat 05:15-də təyyarəmiz Heydər Əliyev hava limanında yerə endi.

...Xəzərdən əsən küləyin gətirdiyi neft qoxusunu nəfəs kimi ciyərlərimizə çəkdik.

# Paşinyana növbəti şillə

*ABŞ-da "Qarabağ Azərbaycanındır" şüarı ilə havaya təyyarə qaldırmaqla Azərbaycan bir daha Ermənistandan diplomatik üstünlüyə malik olduğunu nümayiş etdirdi*

Məlum olduğu kimi, sentyabrın 22-də Ermənistanın baş naziri Nikol Paşinyan ABŞ-a səfəri zamanı, ilk olaraq, Kaliforniyaya gələrkən, Bakının sürprizi ilə üzləşib. Belə ki, Nikol Paşinyanın bu şəhərə gəlişini nəzərə alan ölkəmizin Los-Ancelesdəki Baş Konsulluğu ona əsl sürpriz edib. Konsulluq Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasəti barədə yerli əhalini geniş şəkildə məlumatlandırmaq üçün həmin gün Los-Anceles səmalarına ingilis dilində böyük hərflərlə "Karabakh is Azerbaijan! End the Occupation!" ("Qarabağ Azərbaycanındır! İşğala son qoy!") şüarını daşıyan təyyarələr qaldırılıb. Bundan əlavə, üzərində Qarabağ həqiqətlərini əks etdirən rəqəmsal plakatların olduğu xüsusi maşınlar gün ərzində Los-Ancelesin ən müxtəlif guşələrini dolaşaraq, çoxlu sayda şəhər sakininin Ermənistanın işğalçılıq siyasəti haqda məlumatlanmasına səbəb olub. Plakatlarda Azərbaycanın 20% ərazisinin işğal olunduğu, 1 milyonadək soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi, işğal altında olan ərazilərimizdə Azərbaycan mədəniyyətinə qarşı soyqırımı həyata keçirildiyi, Xocalı soyqırımı və digər məsələlər barədə məlumatlar da verilib.

Paşinyanın Los-Ancelesə səfəri ABŞ mətbuatında da tənqid olunub. Belə ki, ölkənin ən böyük yəhudi qəzeti olan, Los-Ancelesdə nəşr olunan "Jewish Journal" və "NewzBlaze" qəzetlərində Ermənistanın işğalçılıq siyasəti həyata keçirən kriminal bir dövlət olduğu, beynəlxalq hüququ kobud şəkildə pozmaqda davam etdiyi, Ermənistanda nasist generalların (Njde Qaregin və başqaları - "YM".) milli qəhrəman elan olunduğu, anti-semitizmin geniş yayıldığı qeyd olunaraq, belə bir ölkənin baş nazirinin Los-Ancelesdə qəbul olunmasının qeyri-məqbul olduğu qeyd olunub. Məqalələr sosial şəbəkələrdə geniş yayılaraq, sadə amerikalılar tərəfindən N.Paşinyanın səfərinin kəskin tənqidinə səbəb olub.

### Paşinyanın arzuları bu dəfə də puç oldu

Hələ bir neçə ay əvvəlcədən hazırlaşan və intizarla ABŞ səfərini gözləyən Paşinyanın məqsədi rəsmi Vaşinqtonun gözündə rəğbət qazanmaq və Birləşmiş Ştatların işğalçı ölkəyə ciddi siyasi və maddi dəstəyinə nail olmaqdır. Amerikadakı erməni lobbisi də xeyli müddətdir ki, bu yöndə səylər göstərir. Lakin bu səylərin hamısı boşa gedib. Artıq bəllidir ki, N.Paşinyan ABŞ-da, nəinki prezident Donlad Trampla, habelə, dövlət katibi Mayk Pomneo ilə də görüşə bilmədi. Daha dəqiq desək, "xalq baş naziri" ABŞ tərəfindən tam "qulaqardı" və "iqnor" edilib. Səbəb isə, Birləşmiş Ştatlarda Ermənistan



rəhbərinə ciddi inam və etimadın qalmamasıdır. Çünki Paşinyan hansı istiqamətə yönəlməsini anlaya bilməyib, yəni hakimiyyətdə olduğu 1 il yarım ərzində Amerikaya yox, Rusiyaya yaxınlaşma kursu aparıb, o sırada Moskvanın istəyi ilə Suriyaya hərbi-humanitar missiya göndərib ki, bu da, Vaşinqtonun sərt reaksiyasına səbəb olub.

Digər məqam isə, Paşinyanın Rusiyanın qorxusundan "Açıq Cəmiyyət İnstitutu"nun rəhbəri Corc Sorosla görüşdən imtina eləməsi ilə bağlıdır. Paşinyan Ermənistandakı hakimiyyət dəyişikliyinin, kənar qüvvələr tərəfindən planlaşdırılmadığını deyərək bildirib ki, Ermənistanda inqilab təbii şəkildə, planlaşdırılmadan baş verib: "Məsələyə Soros və ya başqa birini qatmaq istəyənlər erməni xalqının ləyaqətini təhqir etmək istəyir. Erməni xalqı onları əzənləri tarixin zibil qutusuna atdı və onlar orada qalırlar".

### Eduard Abrahamyan: "ABŞ-ın Ermənistana qarşı mənfi qərəzi var: Paşinyanın ABŞ səfəri icma xarakterlidir"

Böyük Britaniya Dövlət İdarəetmə İnstitutunun eksperti Eduard Abrahamyanın sözlərinə görə, Nikol Paşinyanın erməni icmasına hansı vacib mesajları çatdıracağı hər kəsə məlumdur: "ABŞ-ın erməni icmasına siyasi cəhətdən yetkin mesajlar çatdırılması üçün Ermənistan-ABŞ münasibətləri ilə bağlı aydın bir görüşə nail olmaq lazımdır. Bizim belə bir baxış nəzərimiz yoxdur. Üstəlik, erməni siyasi elitası son 25 ildə bu görüşü formalaşdıra bilməyib. Fikrimcə, Ermənistan-ABŞ münasibətlərinin aşağı səviyyədə olmasını nəzərə alsaq, ən azı, Ermənistan-ABŞ münasibətlərinin strateji baxışa əsaslanan ümumiləşdirilmiş gündəliyini tərtib etmək əsas məsələdir".

Eduard Abrahamyan bildirib ki, ABŞ-ın Ermənistana qarşı mənfi qərəzi var: "Çünki İrəvan ABŞ-ın rəqibləri Rusiya, İran və artıq Suriyanın yanında yer alıb. ABŞ-ın analitik mərkəzlərində əldə edilən proqnozlar və yekun rəylər bundan irəli gəlir. Bu yanaşmanı dəyişmək lazımdır".

### Oleq Kuznetsov: "Paşinyan populist və demaqoqdur"

Rusiyalı politoloq Oleq Kuznetsov bildirib ki, Paşinyan, ilk gəldiyi gündən, ancaq populist çıxışlar edib: "Paşinyan daxili siyasətdə bu ilin yazında xalqına verdiyi vədlərin heç birini yerinə yetirməyib. Küçədən hakimiyyətə gələn Paşinyan populist və demaqoqdur, eləcə də, dövlət idarəçiliyi və maliyyə siyasəti məsələlərində həvəskardır. O və onun bütün komandası Amerikayönümlü qeyri-hökumət təşkilatlarından ortaya çıxan şəxslərdir. Əsas vəzifələri də dövlət quruculuğu deyil, dövləti tənqid etməkdir. Buna görə də, Ermənistanın mövcud hökuməti tamamilə həvəskar və demaqoqlardan ibarətdir. Bu adamların heç biri ölkədə müsbətə doğru köklü dəyişiklik etmək iqtidarında deyil".

Politoloqun sözlərinə görə, Paşinyan və onun komandası erməni əhalisi arasında öz inamlarını təmin etmək üçün yeganə üsula malikdir: "O, seçki ərəfəsində əhalinin diqqətini daxili problemlərlə qatmalıdır. Paşinyan kollektiv şüursuzluqdan istifadə edərək, kütlənin ona olan sədaqətini itirməsinə yol verməmək fikrindədir. Ona görə də, bu gün Dağlıq Qarabağ separatçılarının qeyri-qanuni silahlı qruplaşma komandirlərinin siyasi xələfi kimi, o, Ermənistan-Azərbaycan münaqişəsini qızışdırmağa məcburdur. Erməni ordusu çarəsizliyi səbəbindən, genişmiqyaslı hərbi əməliyyatlara başlaya bilməz, lakin seçki ərəfəsində öz reytinqini yüksəltmək üçün işğal olunmuş torpaqlarda hər hansı hərbi təxribat həyata keçirə bilər - Paşinyan bunu bacarır".

### Paşinyanın əndrəbadi siyasi "manevrləri" özünüifşaya aparır

Göründüyü kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın verdiyi açıqlamalar və ümumilikdə, əndrabadi siyasi "manevrləri" onun çox gerizəkalı olduğunun göstəricisidir və bununla, ölkəsinə və onun işğalçılıq siyasətinə qarşı hər gün daha çox beynəlxalq qınaq yaradır. Eyni zamanda, bu boşboğaz baş nazirin Azərbaycanın işğal olunmuş ərazisində Dağlıq Qarabağda ümumermeni oyunları kimi avantürist tədbirlərə qatılması və orada "Qarabağ Ermənistandır. Nöqtə" deməsi, onun növbəti sərsəmləməsidir. Çünki bütün dünya dövlətləri, o cümlədən, beynəlxalq siyasi və hüquqi təşkilatlar Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyırlar. Bu isə, beynəlxalq hüquq normalarına əsaslanır. Eyni zamanda, BMT-nin də işğal edilmiş Azərbaycan ərazilərinin dərhal və qeyd-şərtsiz azad olunmasına dair məlum dörd qətnaməsi, bir daha aydın şəkildə göstərir ki, Ermənistan işğalçıdır və Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək qaçılmazdır.

Nikol Paşinyan dəfələrlə iddia edib ki, guya Azərbaycan Ermənistanla deyil, guya qondarma "DQR xalqı" ilə müharibə aparır. Ona görə də, o, danışıqlarda daha çox qondarma "DQR"in əhalisinin tərəf kimi iştirak etməsini irəli sürürdü. O zaman, bəs bu debil "siyasətçi" başqa bir dövlətin rəhbəri olduğu halda, niyə beynəlxalq aləmin də Azərbaycan ərazisi kimi tanıdığı Dağlıq Qarabağa tez-tez səfər edir? Eyni zamanda, hətta gedib Şuşada "Yallı" getməsi, həqiqətən də, Paşinyanın quduz və işğalçı simasını dünyaya bir daha göstərmiş oldu. Bax, budur Paşinyanın debil, sərsəm və işğalçı siması. Bir sözlə, bugünükü vəziyyət onu sübut edir ki, işğalçı ölkədə kriminal rejim çöküb. Paşinyan bilməlidir ki, Ermənistanda inkişaf və sabitlik Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bərqərar olmayacaq.

Ümumiyyətlə, real vəziyyət, onu sübut edir ki, Ermənistanın bir dövlət olaraq, mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir. İşğalçı Ermənistanın yeni rəhbərliyi - Paşinyan da sələfləri kimi, səbəbi qoyub nəticələrlə uğursuz mübarizə aparır. Deməli, yekun eyni olacaq, daha dəqiqi, daha pis olacaq... Daha dəqiq desək, Ermənistanda inkişaf və sabitlik Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bərqərar olmayacaq.

***A.SƏMƏDOVA***

# Narazılıq aksiyası Ermənistanda pik həddə çatdı

***"Əgər bu gün maaşım mənə verilməsə, uşağımla körpüdən özümü atacağam". SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu dünən keçirilən aksiyada aksiya iştirakçılarından biri deyib. Məlumatda qeyd olunur ki, "Sanitek" işçiləri maaş tələb edərək şirkətin ofisi qarşısında etiraz aksiyası keçiriblər. "Sanitek" şirkəti İrəvan Bələdiyyəsinin şirkət qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməyi səbəbdən işçilərə maaşlarını verə bilmədiyini bir daha xatırladıb.***

Bundan sonra etirazçılar İrəvan Bələdiyyəsinə tərəf gedib, Bələdiyyə Başçısı Ayk Marutyan ilə görüş tələb ediblər. "Maaşım bu gün köçürülməsə, uşağımla özümü körpüdən atacağam. Biz sədəqə istəmirik, haqqımız olan, bizə çatmalı olan maaşımızı almaq istəyirik. Bu qədər vaxt normal işlədik, gündəlik çörəyimizi normal qazandıq. Xadiməçilərin, təmizlik işçilərinin maaşlarını həzm edə bilməyəcəklər", deyə aksiya iştirakçıları narazılıqlarını bildiriblər. Etirazçılara İrəvan Ağsaqqallar Şurasının keçmiş üzvü



Sona Aqekyan da qoşulub.

***İnam Hacıyev***

# Tərtər və Bərdə rayon sakinlərinin evlərindən tüfəng tapılıb

Əllərdə qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi, eyni zamanda, könüllü təhvil verilməsi məqsədilə daxili işlər orqanları tərəfindən uğurlu əməliyyat-axtarış və profilaktiki tədbirlər davam etdirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Səhləbad kənd sakini Ə.İsmayılovun evindən müvafiq sənədləri olmayan "İJ" markalı ov tüfəngi aşkar edilərək götürülüb.



Bərdə rayonunun İmamqulubəyli kənd sakini E.Salahovun evində bir ədəd pnevmatik tüfəng rayon polis şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aşkarlanıb. Gəncə şəhərindəki Nizami Rayon Polis İdarəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində isə şəhər sakini Ə.İsgəndərlidən nömrəsiz "Naqan" markalı tapança, dörd ədəd "Preqbalin" həbi və iki ədəd metadon aşkarlanaraq götürülüb.

# Gültəkin Hacıbəyli özünü belə ifşa etdi

## *Yaxud o, necə "Türkel Oğuz"a çevrildi?*

***"Milli Şura"nın koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəylinin özünü, az qala Janna DArk kimi təqdim edərək, müxalifətin "ən mübariz və qorxmaz qadını" obrazını canlandırmaq cəhdi kimsəyə sirr deyil. Əslində, bu vasitə ilə, yəni siyasi artistizm yolu ilə özünə dividend qazandırmağa cəhdlər göstərən G.Hacıbəylinin keçmişi də hər kəsə məlumdur. Yəni onun deputat olarkən, vəzifəsindən sui-istifadə edərək, müxtəlif maxinasiyalarla torpaq biznesindən tutmuş, digər məsələlərinə qədər bütün qanunsuzluqları kifayət qədər ictimailəşdirilib.***

### Əli Kərimlinin trolluq xeyir-duasını aldı, amma...

Düzdür, G.Hacıbəyli hazırda "Milli Şura"da və AXCP sədri Ə.Kərimlinin yan-yörəsində var-gəl edi, sosial şəbəkələrdə fəallıq göstərməklə, gündəmdə qalmağa çalışır. Ancaq onun bu fəaliyyəti izafiləşdikcə, daha çox qaranlıq əməlləri üzə çıxmağa başlayır. Məsələn, sirr deyil ki, başda Ə.Kərimli olmaqla, onun özünün və ətrafının bir neçə saxta profilləri mövcuddur. Onun siyasi partiya sədrindən blogerlik "sənətinə" də yiyələnməsi, habelə, trolluq etməsi də gizli deyil. Eləcə də, G.Hacıbəylinin də trol kimi fəaliyyəti kifayət qədər bəlli olsa da, o, hər vəchlə həmin fəaliyyətini gizlətməyə çalışıb, hətta zaman-zaman, bunu bacarıb da. Ancaq yalanın ayaq tutub yeriməməsi, ya da pozğunun ifşa olunması üçün uzağı 40 günün yetərli olması faktı da özünü təsdiqləyib. Əgər G.Hacıbəylini hazırkı dövrə qədər müxtəlif siyasi fəallar ifşa edirdilərsə, bu dəfə onun özü-özünü açığa çıxarması məsələni daha da aktuallaşdırıb. Onun anidən isterikaya qapılaraq, saxta profillə cavab yazması, hər şeyi gün kimi ortaya qoyub.

### İndi qaçmağa heç bir yer də qalmayıb...

Bu arada, daha bir ifşa faktı aşkarlanıb və həmin məsələni oxucularımıza təqdim edirik. Belə ki, bu günlərdə ictimai-siyasi fəal Ruslan Məmmədzadə G.Hacıbəylinin "Feysbuk"da trol səhifəsi işlətdiyini ifşa edib. İfşa olayı isə, bu cür baş tutub ki, politoloq Şahin Cəfərli statusların birində G.Hacıbəylinin saxta yolla deputat seçildiyini və sərvət topladığını qeyd edib. Buna cavab olaraq, Gültəkin Hacıbəyli özünü itirib və isterikaya qapılıb, politoloqa Türkel Oğuz nikiylə cavab verib. Bu günə qədər ona qarşı ünvanlanmış müxtəlif ifşaedici ittihamları müxtəlif yollarla uzaqlaşdıran G.Hacıbəyli bu dəfə dalana dirənib. Yəni T.Oğuzun, əslində, G.Hacıbəyli olduğu məlum olub. Beləliklə, o, bu vasitə ilə trolbaşı Ə.Kərimlinin də kartlarını açığa çıxarıb. Yəni sübut edib ki, "Milli Şura"dakıların və AXCP-dəkilərin hər birinin bir neçə səhifələri var və həmin səhifələr saxta yollarla "Ə.Kərimlinin on minlərlə tərəfdarı" kimi göstərilir. Lakin indi qaçmağa heç bir yer də qalmayıb...

**Rövşən NURƏDDİNOĞLU**

# Rauf Arifoğlu Əli Kərimlini "arvad" adlandırdı

## *"Arvad işinə qarışmağı sevmirəm..."*



**AXCP** sədri Əli Kərimlinin istefa vermiş müavini Fuad Qəhrəmanlının ailəsində övladlarına və həyat yoldaşına qarşı hərbə-zorbalıq nümayiş etdirməsi məsələsi bu gün də gündəmdə qalmaqda davam edir. İstər Qəhrəmanlının sabiq həyat yoldaşı Zümrüd Yağmurun, istərsə də övladlarının onun barəsində bütün sadistlik məqamlarını ictimailəşdirmələri, artıq Ə.Kərimli cəbhəsinin iç üzünü kifayət qədər ifşa edir. Cəbhəçilərin sədrinin, əlində olan bütün imkanlardan istifadə edib, bu məsələni ikinci plana keçirmək səyləri də nəticəsiz qalmaqdadır. Çünki onun istefasını artıq müxalifət düşərgəsinin bir çox cinahlarından tələb edirlər.

### Əli Kərimlinin dedi-qoducu və ətəyini başına çəkən obrazı

Ə.Kərimlinin siyasi həyasızlıq nümayiş etdirib, hələ də F.Qəhrəmanlı olayına dəstək göstərməsi cəhdlərinə səbəb, ikincinin övladının onu "qonşu arvad" kimi tərənnüm etməsidir. Daha doğrusu, dedi-qoducu, ətəyini başına çəkən obrazı kimi göstərilən Ə.Kərimli, bütün bunları mitinq keçirmək iddiası ilə əvəzləməyə çalışır. Amma alınmır. Misal üçün, Rəsul Quliyevin, həmçinin, başqalarının "istefa ver, get!" tələbləri onu daha da quduzlaşdırır, qıcıqlandırır və hövsələdən çıxarır.

Onu da qeyd edək ki, nə qədər maraqlı görünsə də, AXCP sədri onun istefasını tələb edənləri deyil, bir dəfə sərt ittiham edən "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu hədəfə alıb. Məsələ isə bu cür baş verib.

### "Bu adamın missiyasını Selcan Yağmur çox dəqiq ifadə edib - qonşu arvad"

Daha dəqiqi R.Arifoğlu deyib ki, Ə.Kərimli ona qarşı cavab statusu yazıb və s. SİTAT: "Linki dostlar yolladı, Ə.Kərimlinin çıxışının o hissəsinə baxdım. Gördüm ki, o, məsələnin mahiyyətini dəyişmək və böyütmək istəyir. Gerçək durum ona sərf eləmir. Fuadın öz arvad-uşağını döyməsinin suçunu Mir Şahində və Emin Millidə görür. Sonra da mənə dil atdı. Nə deyim, heç bilmirəm... Bu adamın missiyasını Selcan Yağmur çox dəqiq ifadə edib: "Qonşu arvad"!!! Mən isə "arvad işinə qarışmağı sevmirəm..."

Beləliklə, R.Arifoğlu, əslində, Ə.Kərimlinin haqq elədiyi cavabı verib və görünür, AXCP sədri, həqiqətən də, dırdırçı, vırvırçı "qonşu arvad" obrazının öhdəsindən layiqincə gəlməkdədir.

**Rövşən NURƏDDİNOĞLU**

# "Milli Şura" növbəti rüsvayçılıq ərəfəsindədir

***Müxalifətdaxili qarşıdurmalar fonunda, diqqətçəkən məqam ondan ibarətdir ki, "Milli Şura" deyilən qondarma qurum mitinq keçirmək xülyası ilə çıxış edir. Təbii ki, mitinq şousunun düzənlənməsində xarici amilin müstəsna rolu var. Çünki sakit və sabit bir dönəmdə, hansısa aksiyanın keçirilməsinə ehtiyac duyulmazdı. Söhbət etdiyimiz müsahiblərimiz, mitinq şousunun AXCP sədri Əli Kərimlinin arzu və istəyi ilə planlaşdırılsa da, arxasında xarici məkrli qüvvələrin dayandığını bildirdilər.***



### "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: "Müxalifətin mitinq şousu baş tutmayacaq"

- Hər zaman olduğu kimi, bu dəfə də müxalifət düşərgəsini təmsil edən şəxslərin mitinqləri, əvvəlki mitinqlər kimi, uğursuzluğa düçar olacaqdır. Çünki bu günə qədər müxalifət tərəfindən keçirilən mitinqlərin heç bir nəticəsi olmayıb və onların bu mitinqlərinin uğur qazanmaq şansları sıfıra bərabər olub. Ümumiyyətlə, demək olar ki, radikal müxalifət düşərgəsini təmsil edən şəxslərin bir məqsədi var, o da müxalifətçilik fəaliyyəti ilə pul qazanmaqdır. Bu, müxalifətin biznesidir. Amma müxalifət özlərinin biznesini xaricdən müəyyən dairələr tərəfindən gələn pullarla qurublar. Xaricdə anti-Azərbaycan qüvvələr var və həmin qüvvələr daxildə olan müxalifətə maliyyə vəsaiti ayırır ki, ölkəmizdə nə isə xoşagəlməz bir hal yaratsınlar. Belə olan halda da, müxalifətçilər xarici "ağalarından" aldıqları pul qarşılığında onların dediklərini edirlər. Amma nə xaricinin, nə də ki, daxildə olan müxalifətin nə istəməsindən asılı olmayaraq, heç vaxt onların ölkəmizlə bağlı bu cür çirkin istəkləri və planları baş tutmayacaqdır. Çünki artıq xalqımız müxalifətin necə olduğunu 25 il bundan qabaq görüb. Yəni müxalifət pula görə hər bir səviyyəsizliyi edib və bu gün də edir. Bir sözlə, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər. Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan, onların hansısa mitinqlər keçirməklə, uğur qazanmaları mümkünsüz məsələdir.

### "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Müxalifətin mitinq arzusu reallığa çevrilməyəcək"



- Müxalifətin bu gün Azərbaycanda hər hansı bir mitinq keçirməyə heç bir əsas yoxdur. Radikal müxalifət özündən uydurduğu problemləri qaldırmağa çalışır. Amma ölkəmizdə hansısa problem olsa belə, həmin problem tez bir zamanda öz həllini tapır. Ümumiyyətlə, müxalifət bu gün reallığı özündə əks etdirməyən məsələləri şişirtmək istəyir. Lakin bu da onlarda alınmır. Çünki müxalifətin cəmiyyətdə heç bir çəkisi və nüfuzu yoxdur. Onlar birləşsələr belə, nə isə edə bilməyəcəklər. Yəni müxalifət tərəfindən həmin mitinqlər keçirilsə də, kütləvi aksiya xarakteri almayacaqdır. Sadəcə olaraq, bunlar gündəmdə qalmaq üçün və Qərbdə bəzi dairələrin diqqətini özlərinə cəlb etmək üçün bu addımları atırlar. Demək olar ki, müxalifətin işi-gücü ancaq iqtidarın fəaliyyətinə kölgə salmaq, ağa qara deməkdən ibarət olub. Ümumiyyətlə, bu gün heç kəsə sirr deyil ki, müxalifət xarici qüvvələrdən maliyyə yardımları alır. Müxalifət təmsilçiləri bu cür mitinqlərkeçirməklə xaricdə olan bəzi qüvvələrin diqqətini özlərinə cəlb etməyə çalışır. Yəni müxalifət xaricdən özlərinə maliyyə qaynaqları əldə etmək üçün, məhz mitinq şousu ilə çıxışlar edir. Düzdür, bu günə qədər müxalifət tərəfindən bir çox aksiyalar və mitinqlər keçirilib. Amma hər dəfə də müxalifət tərəfindən keçirilən mitinqlər uğursuzluqla nəticələnib. Bu dəfə də müxalifətin keçirəcəyi mitinqlərin heç bir nəticəsi olmayacaqdır. Çünki müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur.

**GÜLYANƏ**

# Əli Kərimlinin "harada aş, orda baş" siyasəti

## O, törətdiyi cinayətlərin cəzasını almalıdır

***Artıq neçə günlərdir ki, ölkə ictimaiyyətilə yanaşı, müxalifət liderləri də AXCP sədrinin sabiq müavini Fuad Qəhrəmanlının ailəsində baş verən olaylarda bir çoxlarının, o cümlədən, AXCP sədri Əli Kərimlinin də əli olduğu bildirilir.***

"Milli-Strateji Düşüncə Mərkəzi"nin sədri İsa Qəmbər Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədrinin müavini vəzifəsindən istefa verən Fuad Qəhrəmanlının ailəsində baş verənlərə münasibət bildirərək onu tənqid edib və bildirib ki, zəifə qarşı zor tətbiq edən F.Qəhrəmanlı ilə yanaşı, Ə.Kərimli ikiqat cinayətkardır: "Mən hesab edirəm ki, həyati təhlükə olmadan, heç bir insanın başqa insana qarşı zorakılıq etməyə haqqı yoxdur. Ə.Kərimlinin bu cinayətləri örtbasdır etməsi, özünü "kişi" adlandırsa da, nakişilik etməsi, "ailədaxili məsələdir" deyib, üstündən keçməsi, əsl cinayətkarın özü olduğunun təsdiqidir".

Doğrusu, anlamırsan ki, sözügedən məsələyə bu cür düzgün münasibəti başdan-ayağa qədər əli qana batmış İ.Qəmbər deyir. Ancaq bir məqamı da vurğulayaq ki, Ə.Kərimli haqqında dediyi həqiqətdir: "Ə.Kərimli kimi şiddətə yol verən və yaxud belə hadisələrə loyal yanaşanlar, bizdən kənarlaşmalıdır. Özündən zəifə zor göstərənin özünü insan hesab etməyə haqqı yoxdur!"



"REAL" Partiyasının üzvü Zaur Qurbanlı isə yazır ki, AXCP-nin sədr müavini hələ də arvadını, qızlarını döyən və sümüklərini qıran adamdır: "AXCP-nin sədri Ə.Kərimlinin xisləti cinayət törətmək olub. O, ancaq tərbiyəsizlik etməklə yanaşı, həm də söyüş söyməyi bacarır. Ə.Kərimli, demokratik idarəetmə, demokratik ölkələrdəki vəziyyət barədə azacıq anlayışınız olsa idi, çoxdan istefa verərdiniz, dərk edərdiniz ki, bu situasiya sizin üçün ən böyük rüsvayçılıqdır, karyeranızın sonudur. Amma sizin olmayan mənəviyyatınız bunu dərk etmir. Əlacınız olsa, bu barədə etiraz yazan hər kəsin barmaqlarını Ə.Kərimli ilə yanaşı, F.Qəhrəmanlı Zümrüd xanımın barmaqlarının gününə salarsınız".

### Eynulla Fətullayev: "Əli Kərimli cəhənnəmin murdar virusudur"

Araşdırmaçı-jurnalist Eynulla Fətullayev AXCP sədri Ə.Kərimlinin vəhşi, alçaq və murdar virus olduğunu bildirib: "Suriyada müharibə alovunu da Ə.Kərimli kimi vəhşi və murda viruslar törədib. Bu sözlərimə görə, neçə gündür, Ə.Kərimli və cəbhənin digər murdar virusları ünvanıma burada təhqirlər yağdırır. Halbuki mən bu qaragüruhla siyasi polemika aparıram. Amma cavabında söyüş, təhqir və alçaq ifadələr eşidirəm. Bu siyasi cinah öz murdar mahiyyətini ortaya qoyur. Məncə, günahkar A.Mütəlibovdur. 1992-ci ildə o, Ə.Kərimli kimi nadan siyasi kütləni quduz itləri kimi güllələsəydi, Azərbaycan siyasətindən belə üfunət gəlməzdi... Ə.Kərimli kimi alçaqları Azərbaycan siyasətindən təmamilə silmək lazımdır! Belə murdar viruslara tarixdə ikinci şans verilməməlidir. Vəhşi siyasi qüvvəni hakimiyyətə buraxmaq olmaz!!!"

### Nahid Cəfərov: "Saxtakar və satqınçılıqla AXCP-yə sədrlik edən Əli Kərimli cəzalanmalıdır"

Avropada yaşayan, "Oyan" hərəkatının liderlərindən olan Nahid Cəfərov deyib ki, F.Qəhrəmanlı, Ə.Kərimli və Səadət Cahangir (əgər vəzifəsi varsa) dərhal istefa verib, siyasətdən getməlidirlər: "İndi cəbhəçilər gündəmi dəyişmək üçün əllərindən gələni edəcəklər ki, buna uymayın. Bu, bir daha göstərir ki, bu insanlar saxtadırlar və onların apardıqları mübarizə də saxtadır. Saxtakarlıq və satqınçılıqla AXCP-yə sədrlik edən Ə.Kərimli cəzalanmalıdır".

N.Cəfərov onu da bildirib ki, Ə.Kərimlinin partiya daxilində yaratdığı diktatura artıq çoxlarını bezdirib: "Ə.Kərimli 24 ildir ki, zəli kimi AXCP sədrliyinə yapışıb və qopmaq bilmir. Bu müddətdə partiyadan qopa biləcək hər kəs, hər şey qopub, AXCP, təkhüceyrəli zəhərli siyasi orqanizm kimi bölünəbölünə gedib, hələ də, Elçibəy irsinə qarşı parazitlikdə davam edir".

Göründüyü kimi, xalq artıq sizin kimi şərəfsizləri çoxdan arxiv küncünə atıb. Ə.Kərimli kimi parazitlər anlamalıdırlar ki, alət olunaraq istifadə müddətini də çoxdan bitiriblər. Hay-küy salmağa isə ehtiyac yoxdur və tarixin arxivində ləkəli adam kimi qalacaq.

Beləliklə, bu yerdə Dostoyevskinin təsvir etdiyi kimi cinayəti törədib, onun cəzasından qaçmaq mümkündür, amma o cinayətin qorxusundan çıxmaq, əslə, mümkün deyil. Çünki Ə.Kərimli kimilər anadan olduqları gündən bu günə kimi, getdikləri yol əyri olduğu kimi, zaman-zaman cinayətləri də sasız-hesabsız olub. Ona görə də, beləleri yaxın zamanlarda məhkəmə qarşısına çıxarılaraq, etdikləri satqınlığa və cinayətlərinə görə, xalq qalşısında cavab verəcəklər.

**Rəfiqə HÜSEYNOVA**

# Müsavat partiyasında qarşıdurmalara start verildi

## Qurultaya hazırlıq prosesində ziddiyyətlər var

***Müsavat partiyasının növbəti qurultayı ərəfəsində, təşkilat daxilindəki vəziyyət gərginləşib. Belə ki, başqanlığa namizədlər arasında yaranan qarşıdurma iddialar, eyni zamanda, onların hər birinin ayrı-ayrı qruplara sahib olmaları, kuluarlarda bir-birlərinin əks-təbliğat aparmaları, artıq belə bir mənzərə yaradır ki, qurultay kifayət qədər gərgin, qarşıdurma vəziyyətində keçəcək. Artıq o da, məlum olub ki, oktyabrın 12-də keçirilməsi gözlənilən qurultaya hazırlıq prosesində başqanlığa namizədlərin hazırkı başqan A.Hacılıya qarşı kompromatları da olacaq. Daha dəqiq desək, qurultayda hesabat-seçki məsələsi də gündəmdə olacaq və partiya başqanının və mərkəzi nəzarət-təftiş komissiyasının hesabatları dinləniləcək.***

### Tofiq Yaqublu və Yadigar Sadıqlı Arif Hacılıya qarşı kompromatlar hazırlayıblar

Məhz həmin hesabatlarda A.Hacılıya qarşı müəyyən hücumların olacağı gözlənilir. Həmçinin, başqanlığa namizəd olacaqlarını bəyan edən iki şəxsin - Müsavat divanının üzvləri T.Yaqublunun və Y.Sadıqlının ayrı-ayrılıqda öz qruplaşmalarına müxtəlif tapşırıqlar verdikləri də əldə edilən məlumatlar sırasındadır. Onlar hazırda gözləmə mövqeyindədirlər və söz yox ki, A.Hacılının rəsmi qaydada namizədliyini irəli sürəcəyi günü gözləyirlər. Bundan sonra isə, vəziyyət növbəti və daha qalmaqallı fazaya keçid alacaq.

### Namizədlər bir-birlərinə qarşı sosial şəbəkədə müharibə elan ediblər

Daha bir maraqlı nüans budur ki, başqanlığa namizədlər öz təbliğatlarını sosial şəbəkələrdə də aparırlar. Onların tərəfdarları sözügedən məsələdə fəallaşıblar. Y.Sadıqlının adamları həm T.Yaqubluya, həm də A.Hacılıya qarşı müxtəlif sətiraltı tənqidi fikirlər yazır, T.Yaqublunun da adamları eyni prosesi davam etdirirlər. Misal üçün, Y.Sadıqlı T.Yaqublunu Müsavat partiyasının qərarlarına hörmət etmədiyini yazdırmaqla, onun hələ də AXCP-nin egidası altındakı "Milli Şura"da aparıcı funksioner olmasını xatırladır, adamları isə bu kontekstdən yanaşmalar edib, Yaqublunun Müsavat partiyasının başqanı vəzifəsinə layiq olmadığını müxtəlif statuslarında qeyd edirlər.




### Tofiq Yaqublu Əli Kərimlidən asılı qalıb

T.Yaqublunun sosial şəbəkədəki söz müharibəsində vəziyyəti daha yaxşıdır. Çünki ona bu məsələdə, bilavasitə AXCP sədri Ə.Kərimli yardmlar göstərir, trollarını bu məsələdə Yaqubluya dəstək göstərməyə çağırır. Daha dəqiq desək, Ə.Kərimli yaxşı bilir ki, əgər T.Yaqublu Müsavata başqan seçilərsə, Müsavat partiyası AXCP-nin yedəyinə çevrilib, onun dedikləri ilə oturub-duracaq. Yəni Ə.Kərimli T.Yaqubluya minnət qoyacaq ki, onu "Milli Şura"da mövqe sahibi edib və illərdir ki, maliyyələşdirib və s. Beləliklə, Yaqublu Kərimlinin vassalına çevrilib və müəyyən öhdəlikləri indidən üzərinə götürüb.

### MNTK və məclis üzvlüyü uğrunda da savaş gedəcək

A.Hacılıya gəlincə isə, onun ötən qurultayda saxtakarlıq yolları ilə başqanlıq postuna sahib olması, bu gün də unudulmayıb və yalnız namizədlər deyil, elə müsavatçıların əksəriyyəti onun idarəçiliyindən razı deyillər. Ona görə də, bütün hallarda hər bir namizədin sözügedən post uğrunda barışmaz, hətta amansız savaş aparacaqları bəri başdan görünür.

Digər məqamlardan biri də Müsavatın qurultayında mərkəzi nəzarət-təftiş komissiyasının üzvlərinin və məclis üzvlərinin seçilməsi prosesidir. Artıq həmin vəzifələr uğrunda da müsavatçılar arasında kəskin mübarizəyə başlanılıb. Bütün bunlar isə, belə bir nəticəyə gəlməyə zəmin yaradır ki, Müsavatın növbəti qurultayı da ötən qurultay kimi, haray-həşirli, bol istefalı və parçalanmalarla müşahidə olunacaq. Artıq bütün bunların cücərtiləri yavaş-yavaş görünməyə başlayıb. Beləliklə, oktyabrın 12-si Müsavat partiyasının daha bir neçə addım geriləyəcəyi tarixdir.

**Rövşən NURƏDDİNOĞLU**

## İsveçli məktəbli qız alternativ Nobel mükafatına layiq görülüb

İsveçli məktəbli qız və məşhur iqlim fəalı Qreta Tunberq alternativ Nobel mükafatına layiq görülüb. AZƏRTAC xəbər verir ki, sentyabrın 25-də Stokholmda xüsusi tədbirdə "Düzgün həyat tərzinin dəstəyinə görə" ("Right Livelihood Award") mükafatının təqdimat mərasimi keçirilib. Bir çoxları tərəfindən alternativ Nobel mükafatı adlandırılan bu mükafat 2019-cu il üzrə dünyada tanınmış 16 yaşlı isveçli məktəbli qız Qreta Tunberqə verilib.



# Əli Kərimli və Cəmil Həsənli kimilərə min lənət!!!

## Hafiz Hacıyev: "AXCP və "Milli Şura" sədrləri sil meymundurlar"

***Zaman-zaman, sərsəm iddialarla çıxış edən "Milli Şura"nın sədri Cəmil Həsənli növbəti sərsəmliyini nümayiş etdirir. Bu da, təbii haldır. Qarnının bir azarı var: nəyin bahasına olursa-olsun, hakimiyyətə qarşı qarayaxma kampaniyaları aparmaqla, nə qədər şərəfsiz və böhtançı olduğunu sübuta yetirməkdir.***



Azərbaycandan kənarda fəaliyyət göstərən qərəzli media qurumlarına müsahibələrində də yalanın birini bir qəpikdən sırıyan C.Həsənli hakimiyyətə qarşı ittihamlarını o dərəcədə artırır ki, hətta ondan müsahibə alan xarici media qurumları belə, bu yalanlardan təəccüblənirlər.

"Amerikanın səsi"nə verdiyi müsahibəsində açıq-aydın çirkin niyyətini nümayiş etdirərək C.Həsənli bildirib ki, Azərbaycanda terrorla mübarizə düzgün aparılmır. Ay C.Həsənli, bir də deyirsən ki, "professorsan". Sən hələ də bu günə kimi anlamırsan ki, təhlükə saçan terrorçu, hüquq-mühafizə orqanlarının təslim olmaq çağırışlarına və əmrinə cavab vermirsə, o zaman həmin cinayətkar yerindəcə güllələnməlidir. Ancaq C.Həsənli bunu qəbul etmir və deyir ki, güllələnməməlidir. Ancaq onu demir ki, ABŞ-da bir ildə nə qədər silahlı cinayətkarların yerindəcə güllələnməsi faktı var. Niyə bu barədə danışmır? Bəlkə ağlını itirib? Yox! Çünki belə bir sərsəm iddia Həsənlinin dünyagörüşünün olmadığını, təcrübəsiz və naşı siyasətbaz olduğunu kifayət qədər isbatlayır.

Yeri gəlmişkən, o da bəllidir ki, bu gün Azərbaycan xalqı Ermənistanın təcavüzkar və işğalçılıq siyasətindən əziyyət çəkir, işğal nəticəsində, 1 milyondan çox vətəndaşımız doğma yurd-yuvalarından məhrum olub. Onların hüquqları pozulub, xüsusilə, Ermənistanla yanaşı, Qarabağdakı terrorçu rejim yüzlərlə insanlarımıza qarşı terror siyasəti yürüdüb, onları amansızlıqla qətlə yetirib. Görəsən, C.Həsənli "Amerikanın səsi"nə bu barədə niyə danışmır?

### Hafiz Hacıyev: "Cəmil Həsənli ilə Əli Kərimli demokratiyanı anarxiya kimi qəbul edirlər"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev bildirib ki, demokratiyanı bəziləri anarxiya kimi qəbul edirlər: "Bu gün, görün, demokratiyadan bizə kim dərs deyir? Satqın, alçaq, məviyyatsız və əxlaqsız Ə.Kərimli və C.Həsənli. Yararsız adam sizin kimi parpzitlərdir".

H.Hacıyev çıxışı zamanı C.Həsənlini "xoruz baba" adlandıraraq, bildirib ki, bax, budur bələlərinin xisləti - öz mənfəətləri üçün terrorçuları "vətəndaş" amili ilə dəyişib, qara-qışqırıq salmaq, həyasızlıq etmək ənənələri! Bax, budur rəzalət. Bütün deyilənlərdən belə nəticə çıxır ki, rəzalətin başında elə Əli Kərimli və Cəmil Həsənlinin özü dayanır: "Belə bir ifadə var: bəzi itlər onu yemləyənin əlini dişləyər, onu təpikləyənin isə çəkməsini yalayar. AXCP sədri Ə.Kərimli və onun "banditos" dəstəsi Vətəndən, millətdən və demokratiyadan çox danışsa da, həmişə sözləri əməllərinə zidd olub. Ə.Kərimli ilə C.Həsənlinin siyasi karyerası, əslində, sonsuz xəyanətlər, qisaslar, intriqalar toplusudur: o, Azərbaycanda hakimiyyətə gəlmək üçün ölkənin və millətin düşmənləri ilə də separat danışıqlar aparıb, sövdələşib, "maliyyə dəstəsi" və qrantlar qismində paylar alıb, üzərinə öhdəliklər götürüb, sonra hakimiyyətlə danışıqlara can atıb, yenə vədlər verib, amma sonda hamını aldatmağa çalışıb. Bax, budur əxlaqsızların düşüncələri. Ayıbdır, belə müqayisələr aparmaqdansa, abırınıza qısılın. Belə müqayisəsini aparmaq isə, sadəcə, düşüklük və çarəsizlikdir".

**R.HÜSEYNOVA**

# Xədicə İsmayıl Əli Kərimlini hədəfə aldı: "Cinayətə sahib çıxır"




Fuad Qəhrəmanlının ailəsinə tətbiq etdiyi şiddət olayında onunla yanaşı, Əli Kərimli və trol dəstəsi də ittiham olunmaqdadır. Bu dəfə qarşı tərəfləri hədəfə alan Xədicə İsmayıl olub. O, bu kontekstdə bir sıra ittihamlarını irəli sürməklə, F.Qəhrəmanlının törətdiyi əməlindən təmizə çıxarmağa cəhd edənləri sərt şəkildə qınayıb və əslində, AXCP sədri Əli Kərimlinin istefaya getməli olduğunu yazıb. SİTAT: "Biri cəbhəçilərə desin ki, bu mövzuda Selcana hücum çəkmək çox ayıbdır. O şərhləri ilə partiyalarına vurduqları ziyan daha böyükdür. Fuad Qəhrəmanlı özündə cəsarət tapıb, üzr istəyə, qəzəbini, qızını linç edənlərə yönəldə bilərdi, amma bir də yalan danışmağı rəva gördü. Selcan dürüst və güclüdür. İntellektual kapasitəsi də çoxlarından yüksəkdir. Bu, partiya olayı deyil, o zaman bir zəhmət və cəbhəçilər yığışsın söhbətdən. Cinayətkara sahib çıxan cinayətə də sahib çıxır".

### Xədicə İsmayıl Əli Kərimlinin istefasını tələb etməklə, onu bir düşmən kimi özündən uzaqlaşdırmağa çalışır

Qeyd edək ki, X.İsmayılın bu məsələdə ittihamçı rolunda çıxış etməsinin daha bir səbəbi onunla Ə.Kərimli arasında "siyasi məhbus" siyahılarının hazırlanması yönündəki qarşıdurmalarıdır. Belə ki, X.İsmayıl sözügedən vasitə ilə, yəni Ə.Kərimlinin istefasını tələb etməklə, onu bir düşmən kimi özündən uzaqlaşdırmağa çalışır.

Onu da bildirək ki, Ə.Kərimlinin istefasını yalnız X.İsmayıl deyil, eyni zamanda, ABŞ-da yaşayan Rəsul Quliyev də tələb kimi irəli sürüb. Lakin AXCP sədri istefa çağırışlarına, ona qarşı yönəlmiş haqlı sərt tənqidlərə etinasız yanaşır. O cümlədən, öz günahlarını başqalarının "ayaqlarına" yazmağa cəhdlər göstərməklə, məsələdən yayınır. Bu baxımdan, mitinq amilini ortaya atır. Lakin ona qarşı istiqamət alan istefa tələbləri hər gün bir qədər də artmaqda davam edir.

**RÖVŞƏN**

## Yetkinlik yaşına çatmayanlara tütün məmulatı satan şəxs cərimələnib

Yetkinlik yaşına çatmayanlara alkoqollu içkilərin və tütün məmulatlarının satışının qarşısının alınması istiqamətində polis orqanları tərəfindən mütəmadi olaraq tədbirlər keçirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin Baş İctimai Təhlükəsizlik İdarəsi və Sumqayıt Şəhər Polis İdarəsi əməkdaşlarının şəhər ərazisində keçirdikləri reydlər nəticəsində bir köşkdə satıcının yetkinlik yaşına çatmayanlara tütün məmulatı satması faktı aşkar edilib. Həmin köşkün satıcısı barəsində İnzibati Xətalar Məcəlləsinin 455.2-ci maddəsinə əsasən (Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə) protokol tərtib olunub. Bu istiqamətdə reydlər davam etdirilir.

## Yevlaxda ölümlə nəticələnən yol qəzası baş verib

Yevlax rayonunda ağır yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Yevlax rayonunun Xanabad kəndi ərazisində Şəki rayon sakini M.Məmmədkərimovun idarə etdiyi "VAZ-2106" və Ağcabədi rayon sakini X.Şirinovun idarə etdiyi "Mitsubishi" markalı avtomobillər toqquşub. Nəticədə M.Məmmədkərimovun avtomobilində olan sərnişinlərdən - atası Mövsüm hadisə yerində ölüb, özü və digər sərnişini xəstəxanaya yerləşdirilib. Hadisə ilə bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.



# GƏNCLİK VƏ SONRAKI PEŞMANÇILIQ

**RƏFİQƏ**

***Bu günün gəncləri hər zaman cəmiyyətin böyük bir hissəsini təşkil etməklə yanaşı, ictimai həyatda daim fəallıqları ilə seçiliblər. Aqillər qeyd ediblər ki, bir ölkəni abadlaşdırmaq istəsələr, onun gənclərinin elm və mənəviyyatına diqqət etməlidirlər. Hələ çox öncələrdən ulularımız deyərdi ki, öz xalqına düşmən münasibəti bəsləyənlər ölkəni viran etmək istəsəydilər, onun cavanlarını əxlaqsızlığa və cahilliyə yönəltməyə cəhd edərdilər. Necə ki, bunu dağıdıcı müxalifət düşərgəsinin "başbilənləri" edirlər. Çünki fəaliyyətdə olduqları bütün dövrlərdə dağıdıcılıq və qaragüruhçuluq timsalında "siyasiət" yürüdənlərin əsas məqsədləri məkrli siyasətlərinə cəlb etdikləri sadəlövh gəncləri şəxsi mənafeləri yolunda zəhərləməkdən ibarət olub. Bunlar anlamırlar ki, cəmiyyətdə mövqe və məqam əldə etməyin yolu iyrənc, özəl dividendlərə hesablanmış siyasət deyil, sivil və demokratik dəyərlərə hörmətdir. Məhz bu gün də əsl azadlıq dövlətin gəncliyə verdiyi əvəzsiz dəyərdir.***

Bu gün radikalizm meyarlarını üstün tutaraq, hakimiyyət hərisliyi ilə alışıb-yananların əksəriyyəti gənclik anlamına daha çox istədiyi kimi yaşamaq, məsuliyyətsiz həyat tərzi keçirmək, başqalarının siyasi təsirləri altına düşmək kimi qavrayırlar. Bu, həm də, onu deməyə əsas verir ki, AXCP, Müsavat kimi partiyaların kərimli və qəmbərləri, eləcə də, onların "kərimovçu"-"qəmbərovçu" yollarını azmış gəncləri sözügedən məqamı qavramamaqla birgə, başqalarına da öz "siyasətlərinin" düzgün olduğunu sübut etməyə səy göstərirlər. Buna misal kimi icazəsiz aksiyaları və həmin aksiyalarda təsir altına düşmüş bir qrup gəncin hansı oyunlardan çıxdıqlarını göstərmək mümkündür. Müəyyən sifarişlər altında "azadlıq" deyə bar-bar bağıran "zəhərlənmiş" gənclər, bilməlidirlər ki, əsl azadlıq dövlətin gəncliyə verdiyi əvəzsiz dəyərdir.

Bu əsnada, qeyd edim ki, gənclik insan ömrünün elə təmiz, elə pak anlarıdır ki, kiçicik bir çirkab belə, onu bulaşdırmağa və alt-üst etməyə kifayət edər. Çünki bu dövr o qədər dəyərlidir ki, etdiyin hər bir səhv ömrün boyu peşmançılıqla və vicdan əzabı ilə yaşamağına səbəb ola bilər. Bunu cəmiyyət kifayət qədər görüb. Elə zaman-zaman "cəbhəçi" gənclərin etirafı, vaxtilə Əli Kərimli tərəfindən təlimatlandırılmış tərəflərin - "NİDA"çıların dövlətə ünvanladıqları məktub hazırda gənclərin nə qədər vicdan əzabı çəkmələrini təsdiq edir. Yəqin elə buna görə də insan yaşa dolduqdan sonra həsrətlə öz gənclik dövrlərini xatırlayır. Ancaq həmin dövrlərə qayıtmaq mümkün olmadığından, bu, hər bir şəxs üçün şirin xəyal olaraq qalır. Odur ki, hər bir gənc öz gəncliyindən, elə istifadə etməlidir ki, sonda onu səadətə və xoşbəxtliyə çatdırsın. Sonradan ömrünün ən parlaq və çağlayan hissəsini boşa verdiyinə görə peşman olmasın. Peşman olmasın ki, zamanında dövlətə, dövlətçiliyə, xalqa və millətə daha çox xeyir verə bilərdi, amma bunun əvəzində, öz gəncliyini kimlərinsə kirli, murdar və məkrli siyasətlərinə qurban verdi. Peşman olmasın ki, təhsilini və elmini artırmaq əvəzinə, gənc yaşlarından həbslərə düşdü. Peşman olmasın, çünki sonrakı peşmançılıq fayda verməz.

# QƏNİZADƏYƏ TƏRS ŞİLLƏ

## Çingiz Qənizadə, necə oldu ki, "həqiqət" adamına çevrildi?

***Əminliklə və qətiyyətlə demək olar ki, vicdanı olmayan insan cəmiyyətlər üçün ən təhlükəli və qorxulu varlıqlardır. Bu kateqoriyadan olan məxluqlara insan və ya adam demək də, çətindir. Amma nə yazıqlar ki, ikiayaqlılar sinfinə aid olduqlarından, bu məxluqlara başqa ad vermək çətindir. Yəni zorən, istəmədən belə onlara "adam" deyilir. Bu "adam"lar üçün şərəf, mənlik və ləyaqət, milli və dövlətçilik maraqlarını müdafiə və təbliğ etmək kimi anlayış yoxdur. Səhv yoldan çəkindirmək üçün məsləhət vermək və yol göstəmək də mənasızdır. Bir növ qulağını burmaq, təhqir etməklə fikirlərindən və mövqeyindən çəkindirmək də əbəsdir. Dahilərdən birinin dediyi kimi, "ləyaqətsiz adamı təhqir etmək mümkün deyil".***

Yaşadığımız dünyada, eləcə də, qloballaşan dünyamızın bir parçası olan Azərbaycanımızda kifayət qədər mənliyi və vicdanı olmayan "adam"lara rast gəlmək olar. Belələri müxalifət düşərgəsində daha çox olsa da, bunu hardasa başa düşmək olur. Nədən ki, bu məxluqların xəmirləri yalan və böhtandan, satqınlıq və xəyanətdən yoğrulub. Amma cəmiyyətə özlərini sağlam, əqidəli, məfkurələrinə sadiq şəxslər kimi təqdim edənlərin alt qatda müxtəlif əməllər törədib, saxtakarlıq və riyakarlıq etdikləri bəlli olanda, təəccüb doğurur. "Nə baş verdi, niyə belə etdi" sualları yaranır. Bu tip əqidəsizlərlə bağlı çox yazılıb, çox deyilib, amma nə heyif ki, onların kötüyünü kəsmək və bu bəlanı aradan qaldırmaq mümkün olmur.

Üzdə əqidəli, sözünə bütöv əslində isə, mətbuata açıqlamalarında və müsahibələrində, tədbirlərdə, çıxışlarında dövlətini sevən, xalqına bağlı olan dövlət adamlarını hörmətdən, nüfuzdan salmağa çalışanlardan biri də təsadüflər nəticəsində deputat kürsüsünə yiyələnən Çingiz Qənizadədir. Bu üzüdönük, əqidəsi və baxışları hələ də bəlli olmayan Ç.Qənizadəni cəmiyyətdə



çoxları tanıyır. AXC-Müsavat hakimiyyətinin şinelini geyinib, Bakı şəhər prokuroru olan Ç.Qənizadə onlarla vətənpərvər, millətçi gəncləri həbsxanalarda çürüdüb, sağlam ideallara xidmət edən, Ulu Öndərin ətrafında cəmlənən ziyalı insanları hədə-qorxu ilə ölkədən didərgin salınmasında vasitəçilərdən olub. Dəfələrlə rüşvət almada və korrupsiya əməllərində ittiham edilib. Keçmiş deputat Qalib Salahzadə mətbuata verdiyi açıqlamasında bildirmişdir ki, Çingiz Qənizadə Bakı şəhər prokuroru işləyəndə, ondan 30 min ABŞ dolları rüşvət almışdı. Bu, bir faktdır. Neçə-neçə insan mətbuatla əlaqələr qura bilmədiyindən Ç.Qənizadənin rüşvətxor əməlləri barədə ictimaiyyətə məlumat verə bilməmişdir. Amma görünən dağa nə bələdçi?! Hər kəs Ç.Qənizadənin başıpozuq AXC-Müsavat hakimiyyəti dönəmində Bakı şəhər prokuroru kimi hansı qəddar əməllər törətdiyini, rüşvət və korrupsiyanın əsas iştirakçısı olduğunu bilir. Məhz bu bilgilərə görə də, sonradan Ç.Qənizadə əməllərinin acı nəticəsi olaraq həbs edilmişdir. Bir qədər "istirahətdən" sonra azadlığa çıxan Ç.Qənizadə Morfinin "Oyunu uduzsanız qaydaları dəyişin" nəzəriyyəsinə uyğun fəaliyyət istiqamətlərini dəyişib, "hüquq müdafiəçisi" rolunda çıxış etməyə başladı. Burada da öz yanlış əməllərini davam etdirərək, müxtəlif qondarma "siyasi məhbus"lar siyahısı tətbiq etməklə, ölkəmizin dünyada artan roluna zərbə vurmağa və ləkələməyə cəhdlər göstərmişdir. Amma bu fəaliyyətində onun üçün heç də ürəkaçan olmadığını dərk edən Ç.Qənizadə yolunu və yönünü dəyişməli oldu. Yəni birdən-birə qaranlıq keçmişindən imtina edib, oldu "həqiqət adamı". Hətta bir qədər də dərinə gedərək, keçmiş əqidə dostlarını və yoldaşlarını da ağ yuyub-qara sərdi. Düzdü, ona cavab verənlər də tapıldı. AXC-Müsavat hakimiyyətinin külünü göyə sovuranlardan olan İsgəndər Həmidov bəyan etdi ki, Ç.Qənizadə yazıq və bədbəxt adamdır: "Mənim ona yazığım gəlir. Mən nazir olanda, Qənizadə mənə salam verməyi, paltomu tutmağı, ayaqqabılarımı cütləməyi özünə şərəf bilirdi".

Bir sözlə, Ç.Qənizadə keçmiş əqidə yoldaşları ilə bütün körpüləri yandırdığından, daha qətiyyətli və əzmlə sağlam görüntülü fəaliyyət nümayiş etdirməyə başladı, bəhrəsini də gördü. İmişli seçiciləri yığışıb, onu Milli Məclisə deputat da seçdilər. Səhv etdilər - düz etdilər ona ancaq imişlilər bilər. Deyəcəyim onlan ibarətdir ki, o, heç də fəal və imişlilərin maraqlarını ifadə edən deputat deyil. Çünki aparılan araşdırmalar da təsdiq edir ki, imişlilər deputat kimi ondan heç də razı deyillər. Kiminsə probleminin həllinə kömək etdiyi, başqa birisinə yardım göstərdiyi, ümumiyyətlə, seçicilərinin maraqlarını müdafiə etdiyi faktına rast gəlinməyib. İşi-peşəsi elm adamlarını hədəf seçmək, əqidəli dövlət xadimlərinin fikirlərinə iradlar bildirmək, xalqını sevən, dövlətinə bağlı millət vəkillərinin fikirlərini tənqid etməsidir. Sual oluna bilər, niyə bu məxluq yenidən mövqe dəyişkənliyi nümayiş etdirir? Hansısa sifarişləri yerinə yetirdiyini demək çətindir. Amma bir həqiqət var ki, su axar, çuxrunu tapar. Qaranlıq keçmişi olanlardan, ancaq Ç.Qənizadənin nümayiş etdirdiyi kimi, əməl və mövqe gözlənilir. Yəni təəccüblənməyə dəyməz. Bir dəfə yazdığım kimi ağılsızı ağıllandırmaq çətin və müşkül məsələdir. Onları vicdan məhkəməsi qarşısında oturtmaq da əhəmiyyətsizdir. Rus yazçısı Maksim Qorki deyirdi ki, "yalnız özünü yalan, azğınlıq və abırsızlıq zirehinə bürümüş şəxs vicdan məhkəməsindən qorxmaz".

***İ.ƏLİYEV***

***P.S.*** *Hərdən Qənizadənin yadından çıxır ki, bu gün iqtidarda YAP-dır və bu partiyanın funksionerləri ilə həssas davranmalıdır. Bu hakimiyyətin uzunömürlü olmasına heç kimin şübhəsi də olmamalıdır. Ona görə də, Qənizadə kimilər qaranlıq keçmişlərinə yox, işıqlı gələcəklərinə baxsalar yaxşı olar...*

***P.P.S.*** *Qənizadənin quyruğunu bərk tapdalasan, dönüb haqdan qaçar. Yəni Gültəkin Hacıbəylidən, Cəmil Həsənlidən və Nazim Məmmədovdan da betər şivən qoparıb, tumanın başına çəkər...*

# Ziyanlı ilə yalançıların mitinq davası



Deyir, "aşığın sözü qurtaranda, "yarım-yarım" deyir". Bu gün də müxalifət həm sözü, həm özü, həm də pul kisəsi boşalanda, mitinq məsələsini meydana atırlar. Meydan dedim, yadıma heç bir uğura imza ata bilməyən, 25 ildən artıqdır ki, dişsiz çarx kimi yerində sayan dağıdıcı müxalifət düşür. O müxalifət ki, xarici qrantlara arxalanaraq, əllərində olan bir-iki qəzet, saytlar və bir də sosial şəbəkələrlə özlərini təbliğ etməklə, elə zənn edirlər ki, hər şeyə nail ola bilərlər. Ancaq bu satqınlar anlamırlar ki, böhtanla, yalanla və satıb-satılmaqla uğur qazanmaq olmaz. Elə bu yerdə okeanın o tayında, müahacir ömrü yaşayan eks-spiker Rəsul Quliyevin dediyi kimi "ay badbaxtlar, bilmirdiniz ki, dağıdıcıdan, satqından başqan olan partiyanın sonu belə olmalıdır. Belə olan halda, hələ də istər Əlisi olsun, istər Arifi, istərsə də digər satqınların mitinq çağırışlarına gedən 5-10 nəfər də elə başdan xarablardır".

### Aydın Mirzəzadə: "Radikal müxalifət növbəti dəfə gücsüzlüyünü nümayiş etdirəcək"

Aydın Mirzəzadə sentyabrın 28-də "Milli Şura"nın mitinq keçirmələrinə münasibət bildirərək deyib ki, mitinq keçirmək onların hüququdur: "Milli Şura"nın bu cür mitinq keçirməsi Azərbaycanda demokratiyanın olmasının göstəricisidir. Bir məsələ də var ki, istər Əli Kərimli olsun, istər Arif Hacılı, istər Cəmil Həsənli, ümumiyyətlə, müxalifətin mitinq keçirməkdə məqsədi ölkədə sosial vəziyyəti gərginləşdirməkdir. AXCP ilə "Milli Şura"nın itinq keçirməkdə məqsədi nədir? Kimə etiraz edirlər? Mitinq seçkidən sonra keçiriləndə, deyilir ki, seçkilər saxtalaşdırılıb və xalqı ayağa qalxmağa çağırırıq. İndiki situasiyada niyə mitinq keçirilir? Bu, nəyi göstərir? Kimə və nəyə etiraz edilir? Çünki "Milli Şura"nın strategiyası yoxdur. Mitinqin keçirilməsi qərarı bunu bir daha sübut edir".

### Sərdar Cəlaloğlu: "Əli Kərimli ilə Cəmil Həsənli oyunbazlıq nümayiş etdirmək istəyirlər"

ADP sədri Sərdar Cəlaloğlu "Milli Şura"nın keçirmək istədiyi mitinqə münasibət bildirərək, indiki halda, bu aksiyanı fürsətçillik kimi qiymətləndirib: "Onların niyyəti demokratiya adı altında öz maraqlarını təmin etməkdir. İndiki halda, AXCP və "Milli Şura"nın keçirdiyi aksiyalar, məhz anti-Azərbaycan qüvvələrinə sərf edəcək".

Belə bir deyim var, "abırlı insan abrını gözlər". Satqınçılıqla aldıqları qrantların artırılmasını istəyən satılanlarda nə abır, nə həya?! Elə bu abırsızlıqla, yenə də siyasi gündəmdə qalmaqdan ötrü var-gəl edən, çıxış yolu tapmayanda isə mitinq keçirəcəklərini deyən lüləyi Ə.Kərimli, qapağı C.Həsənli olan AXCP-"Milli Şura" cütlüyünün "liderləri" ancaq oyunbazlıq göstərirlər. İstəkləriniz isə, həmişə oduğu kimi, ürəyinizdə qalacaq.

***R.HÜSEYNOVA***


## "Nar"-dan abunəçilərə operativ və keyfiyyətli müştəri xidmətləri

Hər bir abunəçisinin tələbinə xüsusi diqqət yetirən "Nar" müştərilərə fərdi yanaşmanı yüksək səviyyədə təmin edir. Təqdim etdiyi məhsullar, yüksək sürətli şəbəkə ilə yanaşı, mobil operator istifadəçilərinə müxtəlif platformalar vasitəsilə keyfiyyətli müştəri xidməti göstərməkdədir. 6 ay ərzində 777 Cağrı Mərkəzinə 4.2 milyon zəng daxil olub ki, onlara ortalama 23 saniyə ərzində cavab verilib. "Nar"-ın yüksək keyfiyyətli xidməti nəticəsində Cağrı Mərkəzinə zəng etmiş abunəçilərin 89%-i onlara göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib. 2019-cu ilin ilk 6 ayı ərzində mobil operatorun sosial şəbəkələri vasitəsilə isə 115 mindən çox müraciət daxil olub. Daxil olmuş müraciətlərin 95%-i "Nar"ın sosial media komandası tərəfindən 1 dəqiqə ərzində cavablandırılıb.

Müştəri yönümlü strategiyasının davamı olaraq təqdim edilən və müştəri xidməti funksiyasını reallaşdıran "Nar+" tətbiqi hesabı daha asan idarə etmək, nömrəni hər zaman nəzarət altında saxlamaq, bütün xidmət və məhsullardan xəbərdar olmaq imkanı verir.

Abunəçilərinin etibarlı tərəfdaşı kimi "Nar"-ın həyata keçirdiyi müştəri yönümlü strategiyası müştəri məmnuniyyətinin artımına da səbəb olub. Abunəçilərinə göstərdiyi yüksək keyfiyyətli xidmət sayəsində 2 il ərzində ilk dəfə olaraq "Nar" mobil operatorlar arasında müştəri loyallığı indeksi üzrə birinci olub. Mobil operatorun müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# İnsan hüquq və azadlıqlarının müdafiəsinin Azərbaycan modeli

***XVII əsrin sonları, XVIII əsrin əvvəllərindən etibarən, geniş auditoriyalarda yayılan fəlsəfi nəzəriyyələrdə, insana ən ali varlıq kimi yüksək qiymət verilməyə başlanmış, onun hüquq və vəzifələrinin insana layiq şəkildə formalaşdırılmasına təşəbbüs göstərilmişdir. Vaxtilə bəşəriyyətin ən böyük tarixi hadisəsinə çevrilən 1789-cu il Böyük Fransa inqilabının məntiqi sonluğu olan "İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi" insan hüquqları sahəsində ilk yazılı Deklarasiya kimi, iki əsrdən çoxdur ki, insan hüquq və azadlıqlarına dair Konvensiya, konstitusiya və qanun layihələrinin fundamental bazası kimi istinad mənbəyi rolunu oynayır.***




Rəşad Hüseynov yazır: "İnsan hüquqları anlayışının fəlsəfi əsaslarının işlənib hazırlanması son üç əsrin payına düşür. XVIII əsrdən etibarən Avropada insan hüquqları nəzəriyyələri təşəkkül tapmağa başlamış, insan və vətəndaş hüquqları meydana çıxmışdır. Siyasi hüquqlar - ümumi seçkilər, gizli səsvermə, respublika quruluşu, xalq özünüidarəsi, cəmiyyət və birliklərin sərbəstliyi, siyasi həyatda və hakimiyyət sistemində iştirak etmək və s. XIX əsrdə əldə edilmişdir. XX əsr isə bütün bu hüquqlar sırasına sosial hüquqları əlavə etmiş, insan hüquqları ideyası və həmin ideyanın həyata keçirilməsi təcrübəsi ötən əsrdə bütün dünyaya yayılmışdır.

Bəşəriyyətin təkamül prosesi, əslində, insan hüquq və azadlıqlarını düşüncələrdən və xəyaldan gerçəkliyə çevirmişdir. İnsan hüquqları ciddi elmi araşdırmaların predmetinə, daxili siyasətlə bağlı qızğın müzakirə və mübahisələrin mövzusuna çevrilmiş, dünyanın əksər ölkələrində insanın mövcudluğunun və milli inkişafın vacib şərti kimi qəbul olunmuş, hüquqi dövlət quruculuğunun başlıca meyarlarından biri kimi tanınmış, demokratikləşmə proseslərinin geniş vüsət aldığı müasir dövrümüzdə praktiki dəyişikliklərin mərkəzinə keçmişdir. İnsan, onun ləyaqət və qabiliyyətinin daim inkişaf etdirilməsi üçün yaradılmış şərait demokratikləşmənin başlıca istiqamətlərini təşkil etməkdədir".

İnsan hüquqları anlayışının bugünkü mənzərəsi İkinci Dünya müharibəsi zamanı və müharibədən sonrakı ilk illərdə formalaşmışdır. Müharibə gedən dövrdə antihitler koalisiyasına daxil olan ölkələrin başçıları bəyan etmişlər ki, insan hüquqlarının qorunması və bu hüquqlara təminat verilməsi onların müharibədə qarşıya qoyduqları başlıca məqsəddir. 1945-ci il Nürnberq Məhkəməsində də müttəfilə nasist liderlərinin cinayətlərini əks etdirən siyahıya "insaniyyətə qarşı cinayəti" də daxil etmişlər. 1948-ci ildə insan hüquqları ideyası BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və həmin bəyannamədən irəli gələn çoxsaylı beynəlxalq sazişlərdə öz əksini tapmış, o vaxtdan etibarən, "insan hüquqları" anlayışı bütün dünyaya yayılmış, bu, azad və ləyaqətli yaşayış uğrunda mübarizə aparan insan üçün əsas ilhamverici ideyaya çevrilmişdir.

R.Hüseynovun fikrincə, "Demokratik ideallara bağlılıq Azərbaycan xalqının milli düşüncə sistemində daim özünə möhkəm yer tapmış, onun yüzilliklər boyu can atdığı müsləqil dövlətçilik idealının ümdə qayəsinə çevilmişdir. Ənənəvi və modernləşmiş sivilizasiyaların qovuşuğunda yerləşmiş respublikamız müstəqillik əldə etdikdən sonra demokratik dəyərlər vasitəsi ilə qlobal dünyaya inteqrasiya və milli-mədəni özünəməxsusluq yolunu seçmişdir. Bu gün Azərbaycan çevik və müstəqil siyasət yeridərək, yeni dünya nizamının formalaşması prosesinə öz töhfəsini verir və qloballaşan dünyanın tərkib hissəsinə çevrilir.

Yeni minilliyin başlanğıcında beynəlxalq miqyasda baş verən qlobal, siyasi, iqtisadi və kulturoloji proseslər kontekstində, ikiqütblü dünya sisteminin dağıldığı və yeni coğrafi-siyasi məkanın formalaşdığı bir dövrdə, nəinki yeni yaranmış dövlətlər, hətta böyük tarixi ənənələrə malik dövlətlər də öz ictimai-siyasi statuslarını yenidən nəzərdən keçirmək məcburiyyətindədirlər. Qloballaşma, iqtisadi inteqrasiya, ekoloji böhranın dərinləşməsi, sivilizasiyaların toqquşması, beynəlxalq terrorizmin geniş vüsət alması və digər planetar miqyaslı proseslər bütün ölkələr və xalqlar qarşısında müəyyən vəzifələr qoyur.

Azərbaycanın qarşısında isə, bunlardan əlavə, müstəqilliyini yeni qazanmış dövlət kimi bir sıra problemləri həll etmək vəzifəsi dayanır. Sosializm ideologiyasının zehinlərdə və sosial gerçəklikdəki yaşantılarını tam aradan qaldırmaq, sürətlə yeni iqtisadi münasibətlərə keçmək, ictimai həyatın bütün sahələrində demokratiyanı inkişaf etdirmək, yeni ictimai-iqtisadi formasiyanın mahiyyətinə uyğun təkmil hüquqi baza yaratmaq və s. bu kimi önəmli vəzifələrlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qaçqın və məcburi köçkünlər problemi Azərbaycanın üzləşdiyi situasiyanı daha da mürəkkəbləşdirir.

R.Hüseynov daha sonra yazır: "Avroatlantik məkana inteqrasiya yolu tutmuş müstəqil Azərbaycan son illərdə hüquq və azadlıqlarının təminatı sahəsində qazandığı uğurlarla sivil Qərb dəyərlərinə sadiqliyini sübuta yetirmişdir. Ötən illərdə respublikamızda insanların azad və təhlükəsiz yaşaması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində çox ciddi tədbirlər həyata keçirilmişdir. Azərbaycanda demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmış, çoxpartiyalı sistem əsasında demokratik parlament seçkiləri keçirilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlığı, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur.

Sistemli şəkildə həyata keçirilən köklü sosial-iqtisadi və hüquqi islahatların qayəsində insana qayğı, şəxsiyyətə və insan ləyaqətinə hörmət amili dayanır. Azərbaycan insan hüquqlarının müdafiəsi sahəsində nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə əməkdaşlığı yüksək qiymətləndirir və münasibətlərin daha da inkişafına çalışır.

Azərbaycanda hüquqi dövlət və demokratik cəmiyyətin qurulması məqsədi hələ 1991-ci il oktyabrın 18-də qəbul edilən Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında öz əksini tapmışdır. Qarşıya qoyulmuş bu hədəf o illərdə çox yaxın və asan görünmürdü. Yeni yaranmış dövlətimiz özünü Azərbaycan Demokratik Respublikasının davamçısı elan etməklə bərabər, siyasi və iqtisadi münasibətlərin fundamental prinsiplərini - bütün təbii sərvətlərin xalqa mənsub olmasını, mülkiyyətin bütün formalarının bərabərliyini, vətəndaşların seçki hüququnun, çoxpartiyalılıq sisteminin təminatını, insan hüquq və azadlıqlarının ümumi prinsiplərini rəsmən elan etmişdi."

Müəllifin fikrincə, müstəqilliyimizin ilk illərində bir sıra obyektiv və subyektiv səbəblər üzündən Azərbaycanda bu sahədə, demək olar ki, əsaslı irəliləyiş baş verməmişdir. 90-cı illərin əvvəllərində ölkədə yaşanan siyasi katkaklizmlər, vətəndaş qarşıdurması, siyasi xaos və özbaşınalıq, iqtisadi tənəzzül, təcrübəsizlik, eyni zamanda, yeni cəmiyyətin tələblərinə uyğun qanunların olmaması kimi neqativ amillər öz mənfi təsirini göstərmişdir. Respublikamızın demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər isə, məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır.

1993-cü ilin iyununda dünya şöhrətli ictimai-siyasi xadim, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycanın siyasi hakimiyyət rəhbərliyinə qayıdışından sonra ölkədə qanunçuluğun və hüquq qaydalarının bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi prosesi geniş vüsət aldı. Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıdışından sonra hüquqi dövlət quruculuğunu ilk gündən həyata keçirməyə, insan hüquq və azadlıqlarının müdafiəsinin Azərbaycan modelini yaratmağa və inkişaf etdirməyə başladı.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



## YAP Tovuz rayon təşkilatında seminar-müşavirə keçirilib



Dünən YAP Tovuz rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib. Müşavirədə 2019-cu ilin dekabr ayında keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq məsələləri müzakirə olunub. Tədbirdə çıxış edən rayon təşkilatının sədri Məzahir Bayramov 7 sentyabr 2019-cu il tarixdə Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının sədrləri ilə keçirilmiş respublika müşavirəsində partiyanın Sədr müavini-İcra katibi Əli Əhmədovun çıxışında qarşıya qoyulmuş məsələləri müşavirə iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edib ki, həmişə olduğu kimi partiyamız qarşıdakı seçki kampaniyasına da ciddi hazırlaşır. İlk partiya təşkilatlarımız öz fəaliyyətlərini daha da gücləndirməli, bələdiyyə seçkilərində partiyamızın qələbəsini təmin etmək üçün səfərbər olunmalıdırlar. İlk partiya təşkilatları bələdiyyələrdə təmsil olunan YAP üzvlərinin fəaliyyətini öyrənərək, gələcək namizədlərin müəyyənləşdirilməsində nəzərə almalıdırlar. Biz iş təcrübəsinə, əhali arasında nüfuza, mənəvi keyfiyyətlərə malik olan, təhlil aparmağı, problem həll etməyi və qərar verməyi bacaran, ictimai həyatda fəallığı ilə seçilən insanların namizədliyini irəli sürməliyik. Bu sırada gənclərə və qadınlara üstünlük verilməlidir.

M.Bayramov sonra bələdiyyə seçkiləri ilə əlaqədar YAP mərkəzi seçki qərargahının rayon şöbəsinin yaradıldığını bildirib və ilk təşkilatlarla qərargahın qarşılıqlı fəaliyyəti məsələlərindən danışıb. O, eyni zamanda, seçki məntəqələrində fəaliyyət göstərəcək məşvərətçi səs hüquqlu üzvlərin və müşahidəçilərin müəyyən olunması istiqamətində işlərə başlanıldığını bildirib.

Müşavirədə bunlarla yanaşı, ölkəmizdə azad, demokratik seçkilərin keçirilməsi üçün hər cür şərait yaradıldığı, dayanıqlı ictimai-siyasi sabitliyin bərqərar olduğu xüsusi vurğulanıb. Eyni zamanda, o da qeyd olunub ki, ölkəmizin qazandığı böyük uğurları gözü götürməyən, dövlətimizin və xalqımızın mənafeyini etibarlı şəkildə müdafiə edən Prezident İlham Əliyevin iradəsinə təsir göstərə bilməyən xarici qüvvələr satqınlığa meyilli olan adamları və qrupları ələ alıb şirnikdirməklə, çirkin anti-Azərbaycan kampaniyasına rəvac veriblər. Sosial şəbəkələr vasitəsilə şər-böhtan kampaniyası aparanların, ölkəmizdəki siyasi proseslərə qanunsuz müdaxilə edənlərin pozuculuq və təxribatçılıq məqsədlərinin ifşa olunmasında ilk partiya təşkilatlarının fəaliyyətlərinin daha da gücləndirilməsi və bu işdə hər bir partiya üzvünün iştirakı məqsədəuyğun hesab olunub.

*RƏFİQ*

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya ixtisası üzrə IV kurs tələbəsi Xıdırova Nərmin Feyruz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**Tikiş atelyesində müxtəlif adda məhsulların tikişi üçün qadın və kişilər işə dəvət olunur. Atelyeyə modelyerlər də müraciət edə bilərlər.**

**Ünvan: Bakı şəhəri, Təbriz küçəsi ilə Koroğlu Rəhimov küçəsinin kəsişməsi, Dillər Universiteti ilə üzbəüz. Əlaqə telefonu: (050) 246 93 11, Aqil.**


# səs

*Son səhifə* *26 sentyabr*


## YAP Şəmkir rayon təşkilatında ərazi ilk partiya təşkilatı sədrləri ilə seminar-müşavirə keçirilib



Dünən ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıqla bağlı YAP Şəmkir rayon təşkilatında ərazi ilk partiya təşkilatı sədrləri ilə seminar-müşavirə keçirilib. Tədbirdə YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev çıxış edərək, cari ilin dekabr ayında ölkəmizdə növbəti bələdiyyə seçkilərinin keçiriləcəyini deyərək, partiyamızın bu siyasi kampaniyaya ciddi şəkildə hazırlaşdığını diqqətə çatdırıb. F.Vəliyev rayon təşkilatının inzibati binasında seçki qərargahının yaradıldığını və bu işlərdə ilk partiya təşkilatlarının səfərbər olunmasının vacibliyini bildirib. Seçki məntəqələrində məşvərətçi və müşahidəçilərin seçilməsi istiqamətində işlərə başlanıldığını qeyd edən rayon təşkilatının sədri, onu da vurğulayıb ki, namizədlərin müəyyən olunmasında partiya sıralarında xüsusi fəallıq göstərən gənclərə və qadınlara üstünlük veriləcək.

F.Vəliyev çıxışında, onu da söyləyib ki, bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə ölkəmizdə əmakhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişləri əhəmiyyətli dərəcədə artırılmışdır və ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir.

Rayon təşkilatının sədri Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyərək, sosial şəbəkələrdə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib: "Belə xəyanətkar kampaniya aparanlara qarşı mübarizə aparmalı, cəmiyyətimizdə onlar ifşa olunmalıdırlar. Ona görə də, partiyamızın hər bir üzvü bu mübarizədə birlik nümayiş etdirməli, Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. O cümlədən, ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin və dağıdıcı müxalifətin əsl niyyətləri ifşa olunmalıdır".

Sonda partiya həyatı ilə bağlı tədbir iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlar verildi.

*Rəfiqə KAMALQIZI*

## Bakcell qadınların məşğulluğunun artırılmasına dəstək olur




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkətinin dəstəyilə həyata keçirilən növbəti layihə regionlarında yaşayan qadınlara öz bizneslərini qurmaq üçün zəruri bilik və bacarıqlara yiyələnməkdə kömək edir.

"İnformasiya texnologiyaları vasitəsilə Salyan və Sabirabadda qadınların liderlik bacarığının artırılması" layihəsinin əsas məqsədi adıçəkilən rayonlarda qadınları İKT alətləri ilə tanış etmək, bu sahədə onların bilik və bacarıqlarını artırmaq və yeni texnologiyalar vasitəsilə qadınların liderlik bacarıqlarının inkişafına dəstək göstərməkdir. Bu məqsədlə qadınlar üçün "Şəbəkələşmə", "Məşğulluq, peşə və əlavə gəlir", "Karyera planlaması", "Daxili motivasiya və hədəflərinə çatma" və digər mövzularda seminar və vebinarlar təşkil olunub. Layihə çərçivəsində yaradılan www.azqrm.net portalında bacarıqların artırılması ilə bağlı vebinarlar və fərdi inkişafla bağlı digər faydalı məlumatlar yerləşdirilib. Bu portal vasitəsilə hər iki rayonun QRM üzvləri Mərkəzə gəlmədən məşğulluq və bizneslə məşğul olmaqla bağlı məlumat mübadiləsi apara biləcəklər.

Ailə,Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən yaradılmış Sabirabad Qadın Resurs Mərkəzinin nəzdində yaradılan "Sabirabadda Qadınların Sosial İnkişafına Dəstək" İctimai Birliyinin "Bakcell"in dəstəyi ilə icra etdiyi layihə Sabirabadda 95, Salyanda isə 84-dən çox iştirakçını əhatə edib. Onlardan 6 nəfəri yaşadıqları rayonlarda şəxsi bizneslərinə başlamaq üçün ilk addımlarını atıblar. Bakcell şirkəti özünün genişmiqyaslı Korporativ Sosial Məsuliyyət (KSM) proqramı çərçivəsində qadın məşğulluğunun və sahibkarlıq fəaliyyətinin inkişafına dəstək verir.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600